HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 25 (867) ■ 5 iyul 2017 www.vergiler.az Qiyməti: 60 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV



# Güclü ordu, qüdrətli Sərkərdə

## Azərbaycanın Silahlı Qüvvələri Qarabağı azad etmək iqtidarında olduğunu tam təsdiqləyib

**Azərbaycan xalqının məşhur məsəli var: ordum varsa, yurdum var! Biz bu deyimin nə qədər real olduğunu tarixi təcrübəmizdə dəfələrlə görmüşük. Sovet imperiyasının süqutundan sonra Azərbaycan müstəqillik əldə etsə də, ölkəmizi daim əsarət altında saxlamaq istəyənlər, onun milli sərvətlərindən bəhrələnmək arzusunda olanlar istiqlaliyyətimiz ilə barışmaq istəmirdilər. Buna görə hələ ötən əsrin 80-ci illərinin sonlarında tarixdə «sınaqdan çıxmış» köhnə metoda əl atıldı - ermənilərin hər zaman alət millət olması nəzərə alınaraq süni şəkildə «Qarabağ problemi» yaradıldı, ərazilərimizin ələ keçirilməsi üçün məkrli planlar işə salındı. Sovet imperiyasının rəhbərliyinin, Moskvanın məqsədli və ikibaşlı oyunları, müxtəlif addımları nəticəsində Azərbaycan ədalətsiz hərbi münaqişəyə cəlb edildi.**

Savaşın ilk dövrlərindən etibarən Ermənistan müxtəlif üsullarla silahlandırılırdı. Guya onlar hərbi hissələrə «hücum edib» silahlar ələ keçirirdilər. Amma bunların hamısının oyun olduğunu hadisələrin sonrakı inkişafı da təsdiqlədi. Digər tərəfdən, SSRİ-nin «Zaman» televiziya xəbərləri proqramı sistemli şəkildə Ermənistan ordusunun yaranması haqqında reportajlar verir, erməni hərbçilərinin fikirlərini tirajlayırdı. Hətta əsgərlərin hərbi biletlərini ekranda göstərirdilər. Bunun fonunda isə o dövrki Azərbaycan rəhbərliyində qəribə arxayınçılıq, «vəzifəni itirmək qorxusu» var idi. Azərbaycana rəhbərlik edənlər, xüsusən də Mütəllibov iqtidarı Azərbaycanın müstəqil dövlət olacağına inanmaq istəmirdilər. Ona görə də bu proseslərə laqeyd yanaşır, əks tədbirlər görmürdülər. Əksinə, dinc azərbaycanlı əhalinin ov tüfənglərini belə əllərindən aldılar. Bununla da həmin vaxtdan «tarazsızlaşdırma siyasəti»nə başlanıldı. Yəni, hərbi cəhətdən Ermənistana kömək edilərək onları daim Azərbaycandan daha çox təchiz etməyə çalışırdılar. Ermənilər odlu silahlarla silahlanırdı, avtomatları, topları vardı, Azərbaycan tərəfi isə əliyalın qalmışdı.

Kəndlərimiz qarət olunur, azərbaycanlılar girov götürülür, pul müqabilində azad edilirdilər. Bütün bunlara isə SSRİ-nin rəhbərliyi «növbətçi açıqlamalar» verməklə kifayətlənirdi. Azərbaycan əhalisi çaş-baş qalmışdı ki, bu necə olan işdir, bir dövlətin tərkibində yaşayırıq, amma bizim əl-qolumuzu bağlayıblar, ermənilər isə istədiklərini edirlər. Nə səsimizi eşidən var idi, nə də bizə silah verən! Dövlət rəhbərləri isə Ermənistandakı soydaşlarımızın zorla, fiziki təzyiqlərlə, hətta qəsdlərlə dədə-baba torpaqlarından çıxarılaraq Azərbaycana qovulmasına şərait yaradırdılar. Qarabağda yaşayan azərbaycanlılar məcbur olurdular ki, kəndlərini, ev-eşiklərini, torpaqlarını özləri qorusunlar. Gecə səhərə qədər kəndlərdə tonqal qalayırdılar. Çomaqla, baltayla, dəhrəylə keşik çəkirdilər. Əlbəttə, əliyalın insanların silahlı «saqqallılar» qarşısında dayanması uzun çəkə bilməzdi.

Bir qədər keçəndən sonra Azərbaycanda xalqın təzyiqi, təhdidi qarşısında xüsusi təyinatlı milis dəstələri yaradıldı. Hər 2-3 əməkdaşa bir tapança, hərdən isə «təlim avtomatı» verirdilər. Bu strukturun formalaşması da əslində, simvolik idi. Hər kənddən bir neçə nəfəri seçib bu dəstəyə üzv edirdilər.

Lakin bu zaman artıq ermənilər pulemyotlar, zirehli texnika ilə silahlanmışdılar. Xalq gördü ki, özü öz başına çarə qılmasa, dövlət heç nə etməyəcək! Beləliklə, yavaş-yavaş insanlar müxtəlif ov tüfəngləri və digər silahlar, məktəblərdən təlim avtomatları əldə etməyə başladılar. Beləliklə, ilk könüllü özünümüdafiə batalyonları yaradıldı. Yəni, artıq ermənilərin silahlandırılması tam başa çatandan sonra biz silahlanmağa başladıq.

...Ə.Vəzirovun, ardınca isə A.Mütəllibovun «ov tüfənglərini yığmaq» tapşırığından sonra AXC-Müsavat cütlüyünün Azərbaycan ordusunu «yaratmaq» addımları da özünəməxsus və qəribə idi. Onlar səriştəsizliklərini bu sahədə də göstərdilər. Təsadüfi deyil ki, təyin etdikləri ilk müdafiə naziri vətən xaini çıxdı!

Orduda xidmət edən əsgərlər kimlər idi? Küçə ilə gedənlər, dayanacaqda duranlar. Reydlər zamanı əllərinə kim keçirdi təlimsiz-hazırlıqsız birbaşa cəbhəyə göndərirdilər. İnsanları həbsxanalardan buraxırdılar ki, gedin vətəni müdafiə edin! Bu adamların da bir qismi cəbhəyə gedib silah əldə edəndən sonra Bakıya qayıdaraq yeni cinayətlər törətdilər. Ondan sonra isə cinayətkarlığın sayı artmağa başladı. Əslində, elə ordu quruculuğunun nəticəsi belə olmalı idi!

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da möhtəşəm nailiyyətlərə imza atdı. O, uzun müddət dövlət təhlükəsizliyi orqanlarında işləmiş, SSRİ-nin rəhbərlərindən biri olmuşdu. Həm dünyada gedən siyasi proseslərdən, həm də hərbi sahədən kifayət qədər xəbəri vardı.

Ulu öndər hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan vaxtdan ölkəmizdə ordu quruculuğuna başlamışdı. Hansı formada? Ordu ilk növbədə milli zabit kadrlarının olması deməkdir və Heydər Əliyev öz nüfuzu və hörməti ilə mərkəzə müəyyən təsirlər edərək Cəmşid Naxçıvanski adına hərbi təmayüllü internat məktəbini yaratmışdı. Bu, o dövr üçün çox mühüm addım idi.

Həmin vaxt Azərbaycanda bir neçə ali hərbi məktəb olsa da, kursantların çoxu digər millətlərin nümayəndələri idilər. Həmin məktəblərdə azərbaycanlılar demək olar ki, yox idi. Ulu öndər öz nüfuzundan istifadə edərək kvota müəyyənləşdirdi ki, məktəblər Azərbaycanda yerləşdiyi üçün qəbul olunanların müəyyən faizi azərbaycanlılar olmalıdır. Bu da o dövr üçün çox mühüm hadisə idi!

Beləliklə, o dövrdə daha çox inşaat batalyonlarında xidmət edən, hərbi hissələrdə mətbəxlərdə qeyri-hərbi sahələrə yönəldilən Azərbaycan gəncləri hərbi təhsil almağa başladılar. Müstəqillik dövründə Azərbaycan ordusu yarananda zabit heyətinin özəyini həmin insanlar təşkil etdi. SSRİ-nin başqa yerlərində xidmətdə olanlar öz vətənlərinə qayıtmaq arzularını bildirdilər.

...Həmin dövrdə gec də olsa, Müdafiə Nazirliyinin tərkibində müxtəlif batalyonlar yaradılmışdı. Düzdür, o batalyonların hamısı vətənin müdafiəsinə xidmət etmirdi. Bir çoxu müxtəlif siyasi partiyaların maraqlarını güdürdü. Həmin silahlı dəstələr ulu öndər tərəfindən ləğv olundu və əvəzində vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusu yaradıldı. Bu, bütün ictimaiyyətdə böyük ruh yüksəkliyi doğurdu! Tezliklə Horadiz əməliyyatı keçirildi, indiki Çocuq Mərcanlı kəndi də daxil olmaqla 22 yaşayış məntəqəsi işğaldan azad edildi.

Bu əməliyyatdan sonra ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Çünki gördülər ki, yeni yaradılmış bu orduyla Azərbaycan onlara üstün gəlir. Ona görə məcburiyyət qarşısında qalaraq atəşkəsə də razı oldular. Bundan sonra isə Heydər Əliyev ordu quruculuğu prosesini tam miqyasda həyata keçirməyə başladı.

O illər çox çətin və ağır dövr idi. Çünki dövlət büdcəsi boş idi, 1 milyondan çox qaçqın və məcburi köçkün çöllərdə qalmışdı. Dövlət onlara da qayğı göstərməli idi. Amma necə? İqtisadiyyat tənəzzül etmiş, güclü inflyasiya, anarxiya və xaos davam etməkdə idi. Lakin Heydər Əliyev sutkanın 18 saatını işləməyi və problemlərin həllinə nail olmağı bacaran dövlət rəhbərlərindən idi. Ona görə də bütün bu istiqamətlərdə çox qısa müddətdə böyük işlər görüldü. Atəşkəs elan olunandan sonra qeyri-qanuni silahlı dəstələr ləğv edildi, əhalidə olan külli miqdarda silah-sursat toplanıldı. Ölkədə möhkəm və dönməz sabitlik yarandı. Nəhayət, iqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı münasibətlərinə keçid üçün addımlar atıldı, özəlləşdirmə proqramları həyata keçirildi. Ən mühüm tarixi hadisə «Əsrin müqaviləsi» neft kontraktının imzalanması oldu! Beləliklə, həm də dünyanın aparıcı dövlətlərinin maraqları müstəqil Azərbaycanın maraqları ilə uzlaşdırıldı.

Bütün bu proseslərlə paralel ordu quruculuğu durmadan davam etdirildi, qısa müddətdə Azərbaycan Ordusu lazımi səviyyədə formalaşdırıldı.

...Ulu öndərin ordu ilə bağlı müəyyən etdiyi strategiya bu gün onun layiqli siyasi davamçısı olan Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirilir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, ordunun gücləndirilməsi daim prioritet məsələdir. Məlum olduğu kimi, Heydər Əliyevin müəllifi olduğu neft strategiyası 2005-ci ildən öz bəhrəsini verməyə başladı, Azərbaycanın iqtisadi imkanları daha da artdı. Məhz bundan səmərəli istifadə edərək ölkəmizin dinamik və davamlı inkişafına nail olan Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də ordudur. 2007-ci ildən etibarən Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsini ötdü. Ordumuzun arsenalına ən yeni silahlar daxil edildi. Hərbi hissələr ən müasir texnologiyaya əsaslanan silahlarla təchiz olunmağa başladı.

Beləliklə, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və modern ordusuna sahibdir.

Ordunun digər vacib şərtlərindən biri onun idarə olunmasıdır. Texnika da var, əsgərlər də! Amma bunlar komandirlərin hazırladığı planlar, keçirilən təlimlər zamanı toplanan təcrübə əsasında idarə olunmalıdır. Artıq ordunun mükəmməl idarə olunması, döyüşlər zamanı müxtəlif qoşun növləri arasında əlaqələrin koordinasiya edilməsi üçün müasir, intellektual komanda-idarəetmə mərkəzimiz var.

...Ordu quruculuğu tam başa çatsa da, ordu təchizatı başa çatmayıb. Çünki bu, davamlı bir prosesdir. Daim sistemli şəkildə yeni silahlar alınır. Artıq müasir texnologiyalar əsasında istehsal aparan Müdafiə Sənayesi Nazirliyi də yaradılıb. Minə qədər adda müxtəlif təyinatlı silah-sursatlar istehsal edilir. Azərbaycanın snayper silahları, avtomatları, tapançaları var. Azərbaycan özünün zirehli texnikasını yaradıb. Azərbaycan artıq silah ixracına başlayıb. Yəni, sabah müharibə başlasa, bizim heç bir dövlətdən asılılığımız olmayacaq.

Ordunun ən mühüm şərtlərindən biri Ali Baş Komandanın özünün Silahlı Qüvvələrə bağlı olması, hərbi işi dərindən bilməyi və daim ordunun problemləri ilə yaşayıb, onları uğurla həll etməyi bacarmasıdır. Bu sahədə də Azərbaycan Ordusunun bəxti gətirib. Cənab İlham Əliyev sistemli şəkildə təmas xəttində, səngərlərdə olur, əsgərlərlə görüşür, onları təltif edir, durumları ilə maraqlanır, onlarla birgə əsgər yeməyi yeyir. Bunlar həm orduda böyük ruh yüksəkliyi doğurur, həm də onun daxilində olan məsələləri öyrənib problemlərin dərhal həll olunmasına şərait yaradır. Bütövlükdə, ordu-rəhbər birliyi, ordu-xalq vəhdəti özünün yüksək səviyyədə həllini tapmışdır!

Bu vəhdətin təsdiqini biz ötən il Lələtəpə uğrunda döyüşlərdə gördük. Həmin vaxt həyata keçirilən hərbi əməliyyatlar Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Gördük ki, bu ordu çox qısa müddətdə qarşısına qoyulan vəzifələri yüksək səviyyədə həyata keçirmək iqtidarındadır. Ermənilər uzun müddət kimlərinsə sayəsində «keçilməz sədd», «aşılmaz maneələr», «dəf edilməz səngərlər» yaratmışdı.

Amma Lələtəpə əməliyyatı göstərdi ki, bütün bunlar mifdir, Azərbaycan əsgəri üçün asan hədəfdir! Həm də o əməliyyatlarda bizim malik olduğumuz silah-sursatın cüzi qismi işlədildi. Çünki əvvəlcədən hazırlanmış hücum əməliyyatı deyildi ki, bütün texnika oraya yığılsın. Uğurlu əməliyyat nəticəsində həm də Azərbaycan xalqının orduya olan məhəbbəti, inamı qat-qat artdı! Təmas xəttində yaşayan əhali uzun illər idi ki, ordumuza inanaraq orada yaşayır. Lələtəpə əməliyyatı zamanı onlar inamlarını əməli işdə sınadılar, evlərini tərk etmədilər və əmin oldular ki, Azərbaycan Ordusuna güvənmək mümkündür!

Əməliyyatda plana uyğun olaraq güclü müdafiə təşkil edilmişdi. Ermənilər görəndə ki orduya gücləri çatmır, murdar xislətlərinə sadiq qalaraq dinc əhalini hədəf seçdilər. Yaşayış evlərini gülləyə, mərmiyə tutdular. Bu zaman insanlar o qədər mütəşəkkil və peşəkar hərəkət etdilər ki, çoxsaylı evlər, tikililər dağıdılsa da, əhali arasında böyük tələfat olmadı. Deməli, cəbhə bölgəsində yaşayan Azərbaycan vətəndaşları da hərbi əməliyyatlar zamanı necə hərəkət etməyi öyrənib. Əhali arasında təfriqə, qorxu, köç-filan yaranmadı. Bunun özü də müharibə zamanı çox vacib amillərdəndir.

...Aprel döyüşləri başlayanda yüzlərlə Azərbaycan gənci hərbi xidmətə çağırış vərəqəsini gözləmədən döyüşmək istəyi ilə səfərbərlik orqanlarına müraciət etdilər.

**Davamı 2-ci səhifədə**

# Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident,

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər diplomatik əlaqələrimizin qurulmasından sonra ötən 25 il ərzində dostluq və əməkdaşlıq zəminində dinamik və hərtərəfli inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Enerji təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycanın həyata keçirdiyi irimiqyaslı transmilli layihələrə ABŞ-ın mühüm və davamlı dəstəyi, beynəlxalq terrorizmə qarşı mübarizədə, Əfqanıstanda sülhyaratma missiyasında ölkələrimizin yaxından və səmərəli əməkdaşlığı tərəfdaşlığımızı səciyyələndirən başlıca amillərdəndir.

Biz, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın doğma yurd-yuvalarına qayıtması üçün Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həllində ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı, 30 iyun 2017-ci il.

# Belarus Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç.

Belarus Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Müasir Belarus nəzərdə tutulan məqsədləri və prioritet vəzifələri uğurla həyata keçirərək dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsi, davamlı sosial-iqtisadi inkişaf sahələrində sanballı uğurlara nail olub.

Azərbaycan ilə Belarusu ənənəvi sıx dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Əminəm ki, bizim birgə səylərimiz Azərbaycan-Belarus qarşılıqlı faydalı əməkdaşlığının və çoxplanlı qarşılıqlı fəaliyyətin bundan sonra daha da genişlənməsinə və möhkəmlənməsinə şərait yaradacaq.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Belarus xalqına sülh və firavanlıq arzu edirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı, 30 iyun 2017-ci il.

## BU NÖMRƏMİZDƏ

MALİYYƏ HESABLARI BARƏDƏ MƏLUMATLAR AVTOMATİK MÜBADİLƏ EDİLƏCƏK 2

YENİ TVİNNİNQ LAYİHƏSİ UĞURLA DAVAM ETDİRİLİR 2

BANK SEKTORUNUN SAĞLAMLAŞDIRILMASI, ÜMUMİLİKDƏ, İQTİSADİYYATIN SAĞLAMLAŞDIRILMASI DEMƏKDİR 3

İKİLİ MÜHASİBATA QARŞI MÜBARİZƏ SƏRTLƏŞİR 5

# Güclü ordu, qüdrətli Sərkərdə

**Əvvəli 1-ci səhifədə**

Əməliyyat gedən əraziyə bu gəncləri buraxmamaq üçün bir sədd yaratmışdılar. Ermənistan tərəfdə isə Azərbaycan əsgərindən, Azərbaycan silahından qorxub qaçan erməni əsgərlərini saxlamaq üçün sədd çəkmişdilər, hətta onları geriyə qaytarmaq üçün güllə ilə vururdular da! Bərkə düşən kimi erməni hərbçiləri qaçmağa başlayırlar. Çünki bilirlər ki, Qarabağ onların deyil və müvəqqəti bu ərazidədirlər!

Ordu quruculuğunun mərkəzində, özəyində insan amili dayanır. Yəni, ilk olaraq, insan vətənini sevməli, fiziki cəhətdən güclü, sağlam, mənən zəngin, döyüşkən olmalı, qorxmadan düşmən üzərinə getməyi bacarmalıdır və nəhayət, hərbi vərdişlərə yiyələnməklə silahlardan məharətlə istifadə etməlidir. Əgər orduda vətənpərvər, sağlam, güclü, torpağını sevən insanlar olmasa, müasir texnologiyaya əsaslanan silahlardan, texnikadan da səmərəli istifadə etmək çətindir.

Bu mənada ordumuzun gücü həm də şəxsi heyətin yüksək mənəvi durumu ilə ölçülür. Azərbaycan Ordusu bu sahədə əsl nümunə ortaya qoyur. Bizim Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov, Raquf Orucov kimi qəhrəmanlarımız var. Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun səbəblərindən biri vətən sevgisidirsə, digər mühüm səbəb Ali Baş Komandanın nümayiş etdirdiyi vətənpərvərlik örnəyidir. Azərbaycan Prezidenti davamlı şəkildə əsgər kazarmalarında olur, mövcud şəraitlə maraqlanır. Xidmətini başa çatdıran zabitlərə mənzillər verilir. Ermənistanda isə gördüyümüz odur ki, erməni anaları öldürülmüş uşaqlarının şəkilləri əllərində öz rəhbərlərindən haqq-hesab sorurlar. Bu cür hallar getdikcə daha da kütləviləşir. 9-cu sinifdən sonra erməni valideynlər uşaqlarını orta məktəbdən çıxarıb müxtəlif «səmərəli üsullarla» - rüşvət verməklə xaricə qaçırırlar. Ermənistanda hərbi çağırış zamanı hərbi hissələri komplektləşdirmək mümkün olmur!

Qürurverici məsələlərdən biri odur ki, bu gün hərbi təhsil alanlar arasında xeyli sayda məcburi köçkün övladları var. Onlar hərbi peşəyə yiyələnməklə bəyan edirlər ki, müharibə başlayanda öndə olacaqlar, çünki öz torpaqlarını özləri azad etmək istəyirlər! Bu, orduya məhəbbətdir, dövlətə inamdır!

Azərbaycan gənci çağırış vərəqəsi gəlmədən könüllü olaraq orduya getmək istəyir. Erməni tərəfi isə təklif edir ki, kim Qarabağda üç il xidmət etsə, ona 10 min dollar veriləcək. Vətən sevgisinin nəticəsidir ki, Azərbaycan gənci torpaq uğrunda canından keçir, şəhid olur. Ermənistan gəncini isə orduya gətirmək üçün ona rüşvət təklif edirlər. Bu, üstünlükdür, dönüşdür, dəyişiklikdir. Bu dəyişikliyin nümunəsini bir neçə gün əvvəl də gördük. İyunun 14-də Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin açılışında iştirak etdi. İlkin olaraq 50 mənzil tikilib. Amma 250 ailə kəndə qayıtmaq arzusundadır. İnsanlarda nə qədər dövlətə güvən, torpağa sevgi var ki, hər kəs kəndə qayıtmaq, orada yaşamaq istəyir. Bu, Orduya və Ali Baş Komandana olan inam və etibardır.

...Ordunun arxalandığı bir neçə digər məqam da var. Birincisi, onun tərkibi daim təzələnməlidir, köhnə əsgər, zabit heyətini yeniləri əvəz etməlidir və say tərkibi çoxalmalıdır. Bu cəhətdən bizdə heç bir problem yoxdur! Azərbaycan Ordusunda fərarilik daha yoxdur! Fərarilik Ermənistana xas olan faktdır. İkincisi, silah-sursat təminatı sahəsində də vəziyyət ürəkaçandır. Çünki həm xaricdən silah-sursat və ya texnika alırıq, həm də özümüz istehsal edirik. Digər mühüm məsələ isə ordunun idarə olunmasıdır. Sistemli şəkildə Azərbaycanda döyüş vəziyyətinə uyğun, atışlı hərbi təlimlərin keçirilməsi ordunun döyüş qabiliyyətinin və təcrübəsinin artırılmasında, qoşun növlərinin koordinasiyalı idarə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Ermənilər hərdən Ağdamın Uzundərə adlanan yerində bir neçə sınıq-salxaq texnika ilə atəş açıb səs-küy çıxarırlar ki, guya hərbi təlim keçirirlər. Amma Azərbaycanın keçirdiyi hərbi təlimlərdə yüzlərlə zirehli texnika, canlı qüvvə, artilleriya qurğusu, döyüş aviasiyası atəş meydanına çıxır. Təlimlərə uzaqvuran toplar, vertolyotlar, təyyarələr cəlb edilir. Azərbaycan artıq Türkiyə ordusuyla birgə təlimlər keçirir. Bunlar sıradan hadisələr deyil! Özü də real atışlı təlimlər ordunun hərbi əməliyyatlara hazırlığı üçün çox vacib şərtdir. Əsgərlərimiz hər təlimdən sonra müharibə şəraitinə uyğun təcrübə toplayırlar. Bundan başqa, texnikanı necə idarə etmək lazım olduğunu öyrənirlər. Təhlillərin aparılması, ani qərarlar və s. barədə təcrübələrini artırırlar. Hər bir təlim həm də böyük vəsait deməkdir. Məhz vəsaitin yoxluğu imkan vermir ki, ermənilər çoxsaylı texnikanın cəlb edildiyi güclü təlimlər keçirsinlər.

Bunlar Qarabağ müharibəsində böyük qələbənin hazırlıq məşqidir. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək qətiyyətindədir! Cənab İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcək, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcək! Təəssüf ki, ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar BMT-nin məlum dörd qətnaməsinin icrasını təmin etmirlər. Dünyada ikili standartlar var! Daim deyirlər ki, məsələ sülh yolu ilə həll olunsun! Sülh yolunda isə Ermənistan danışıqlara gəlmir, yaxud onu danışıqlara gətirmirlər. Bu mənada sülh danışıqları məhz erməni tərəfinin destruktivliyi səbəbindən baş tutmur. Lakin bir dəfə də olsun, Ermənistan rəhbərliyinə sual etmirlər ki, sənin qoşunların niyə Azərbaycan torpaqlarındadır?! Ali Baş Komandan İlham Əliyev də bəyan etdi ki, əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından rədd olub getsin!

Azərbaycan hələ ki, sülh danışıqlarına sadiqdir. Lakin hərb variantı da istisna deyil! Ordunun modernləşdirilməsi, yeni silahların alınması, keçirilən təlimlər Azərbaycanın ərazi bütövlüyünün bərpasına xidmət edir. Əgər beynəlxalq qurumlar istəmirlərsə müharibə baş versin, birinci növbədə problemin sülh yolu ilə həllinə nail olmalıdırlar. Onlar işğalçını öz adı ilə çağırmalıdırlar! BMT-nin qətnamələrini yerinə yetirməlidirlər!

Bunların heç biri yoxdursa, onda hərbi əməliyyatdan çəkindirməyin, snayperləri təmas xəttindən geri çəkmək, atəşkəsə əməl etmək barədə çağırışların heç bir effekti olmayacaq! Çünki Azərbaycan öz torpağını, işğal edilmiş ərazilərini azad etmək istəyir! Bunu hər bir Azərbaycan vətəndaşı, hər bir zabit və əsgər istəyir!

Bu məsələ nə qədər tez sülh yolu ilə həllini tapsa, o qədər yaxşıdır! Çünki artıq Azərbaycanın qüdrətli ordusu və qətiyyətli, prinsipial mövqeyi var! Bunu hamı bilməlidir: tək ermənilər yox, onların havadarları da! İndiyədək erməniləri sülh danışıqlarına vadar etməyən, yaxud danışıqlar masasına gətirmək istəməyən beynəlxalq təşkilatlar və dövlətlər də dərk etməlidirlər ki, Azərbaycanın səbri tükənməz deyil!

Gücü isə kifayət qədərdir!

**«Azərbaycan» qəzeti,**
*25 iyun 2017-ci il*

# Maliyyə hesabları barədə məlumatlar avtomatik mübadilə ediləcək

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentində maliyyə institutlarının məsul şəxsləri üçün Ümumi Hesabatlılıq Standartının (CRS) tətbiqi ilə bağlı seminar keçirilmişdir.

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktoru Səfərəli Cavadov bildirmişdir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanan bu standart dünyanın 100-dən çox ölkəsində tətbiq olunur. Sənəd vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin həmin dövlətlərdəki maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanmasını və həmin hesab sahiblərinin rezidentləri olduqları dövlətlərə ötürülməsini tənzimləyir.

şöbəsinin əməkdaşı Elxan Əhmədzadə CRS-in tətbiqi barədə təqdimatla çıxış edərək bildirmişdir ki, bu standartı tətbiq etmək üçün maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında çoxtərəfli razılaşmaya qoşulmaq zəruri hesab olunurdu. Bu məqsədlə Vergilər Nazirliyi 1 iyun 2017-ci ildə müvafiq bəyanat imzalamışdır və həmin sənədə əsasən, CRS bu il iyulun 1-dən Azərbaycanda tətbiq edilməyə başlanılmışdır: «Maliyyə hesabları haqqında məlumatların hesab sahiblərinin rezidenti olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyən CRS-in tətbiqində məqsəd bu sahədə şəffaflığın yaxşılaşdırılması, vergidən yayınmaya qarşı mübarizə və vergi daxilolmalarının artırılmasıdır».

Qeyd edilmişdir ki, burada hesabat verən maliyyə institutu dedikdə, verilməli hesabların müəyyən edilməsi barədə bildirilmişdir ki, bunun üçün rezidentlik meyarı əsas götürülür. Daha sonra hesabat göndərilən yurisdiksiyada yerləşən qeydiyyat və ya faktiki yaşayış ünvanı, hesabat göndərilən yurisdiksiyada olan telefon nömrəsi, maliyyə vəsaitlərinin xaricdəki hesaba köçürülməsinə dair dövri ödəniş və ya mütəmadi köçürmələr, xaricdə ünvanı olan şəxsə hesab ilə əlaqədar verilmiş qüvvədə olan etibarnamə və ya imza səlahiyyəti, maliyyə institutunun baza məlumatlarında hesab sahibinə məxsus yeganə ünvanın «vasitəçi ünvanı» və ya «əmanət ünvanı»nın olması da əsas meyar kimi müəyyən olunmuşdur. Meyarların müəyyənləşdirilməsi üçün fiziki şəxslərə məxsus aşağı və yüksək dəyərli əvvəlcədən mövcud olan hesabların yoxlanılması 30 iyun 2018-ci ilədək başa çatdırılmalıdır».



Qeyd edilmişdir ki, fiziki şəxsin hesablarından fərqli olaraq, hüquqi şəxslərə məxsus elə hesablar var ki, onların araşdırılması, müəyyən edilməsi və məlumat verilməsi tələb olunmur: «30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min ABŞ dolları olan hesablar 2018-ci il və növbəti illərin son gününə 250 min dolları keçməyəcəksə, həmin hesablar barədə məlumat verilməyəcək. Araşdırılması tələb edilən əvvəlcədən mövcud olan hesablar isə 30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min dolları keçən hesablardır. Eyni zamanda, bu tarixə məcmu qalığı və ya dəyəri 250 min dollar olub, lakin 2018-ci ilin və növbəti illərin son gününə 250 min dolları keçən hesabların da araşdırılması tələb edilir».

**Vergilər Nazirliyi 1 iyun 2017-ci ildə müvafiq bəyanat imzalamışdır və həmin sənədə əsasən, CRS bu il iyulun 1-dən Azərbaycanda tətbiq edilməyə başlanılmışdır**

Standartın tələbinə əsasən, maliyyə institutları hesab açan şəxslərə özünüqiymətləndirmə anketini təqdim etməlidir. Həmin anketlərin hazırlanmasında böyük bankların təcrübəsindən istifadə olunmuşdur. Azərbaycan qanunçuluğunda bu standartın tətbiqi üçün münbit zəmin vardır: «Vergi Məcəlləsinə edilmiş sonuncu dəyişikliklərə əsasən, maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməməsinə görə - hər belə hesab və ya əməliyyat üçün maliyyə institutlarına 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir».

Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət

CRS məqsədləri üçün bank fəaliyyətini həyata keçirən təşkilat, depozitar, investisiya təşkilatı, müəyyən olunmuş sığorta şirkətləri başa düşülür: «Hesab sahibləri hüquqi və fiziki şəxslərdir. Hesab isə iki növə bölünür: əvvəlcədən mövcud olan və yeni hesablar. Əvvəlcədən mövcud olan hesablar maliyyə institutlarında 30 iyun 2017-ci il tarixinə mövcud olan hesablar, yeni hesablar isə 1 iyul 2017-ci il tarixində və ondan sonra açılmış hesablardır. Əvvəlcədən mövcud olan fiziki şəxs hesabları iki kateqoriyaya bölünür: aşağı dəyərli və yüksək dəyərli hesablar. Aşağı dəyərli hesablara 30 iyun 2017-ci il tarixinə qalığı və ya dəyəri 1 milyon ABŞ dollarını keçməyən hesablar, yüksək dəyərli hesablara isə 30 iyun 2017-ci il tarixinə və ya növbəti illərin 31 dekabr tarixinə qalığı və ya dəyəri 1 milyon ABŞ dollarını keçən hesablar aiddir».

Fiziki şəxslərə məxsus hesabların yoxlama prosedurları və hesabat

Hüquqi şəxslərə məxsus əvvəlcədən mövcud olan hesabların yoxlama müddəti barədə qeyd edilmişdir ki, 30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min dolları keçən əvvəlcədən mövcud olan hüquqi şəxs hesablarının yoxlanılması 30 iyun 2018-ci ilədək başa çatdırılmalıdır. 30 iyun 2017-ci il tarixinə məcmu qalığı və ya dəyəri 250 min dolları keçməyən, lakin 2017-ci ilin və ya növbəti ilin 31 dekabr tarixinə 250 min dolları keçən əvvəlcədən mövcud olan hüquqi şəxs hesablarının yoxlanılması hesabın məcmu qalığı və ya dəyərinin 250 min ABŞ dolları məbləğini keçdiyi təqvim ilindən sonra növbəti il ərzində başa çatdırılmalıdır.

Sonda maliyyə institutları nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**Aytən NƏBİYEVA**

# Yeni tvinninq layihəsi uğurla davam etdirilir

İyunun 30-da Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» tvinninq layihəsinə həsr olunmuş tədbir keçirilib. Layihənin Azərbaycan tərəfindən rəhbəri, vergilər nazirinin müşaviri Elçin Məmmədov bildirib ki, Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planında müəyyən edilmiş prioritetlərə əsasən, vergi orqanlarında müasirləşmənin, sadələşmənin və informasiya-kommunikasiya texnologiyalarından istifadənin davam etdirilməsi nəzərdə tutulub. Vergi ödəyiciləri ilə əməkdaşlıq, etika siyasəti, maliyyə nəzarəti strategiyası, audit və qının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hazırlanmış tvinninq layihəsi bu sahədə mövcud vəziyyəti və istənilən nəticəni özündə əks etdirir. Elan olunmuş tenderdə İspaniya və Fransanın birgə təklifi qalib gəlib. Ümumi müddəti 27 ay, büdcəsi isə 1,3 milyon avro məbləğində müəyyən olunan layihə 4 əsas komponentdən ibarətdir:

- Vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı İnkişaf Proqramının yaradılması;
- Xidmətlərə tələbatın müəyyənləşdirilməsi və idarə olunması;
- Vergi ödəyicilərinə göstərilən xidmətlərin əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi və mövcüd göstəricilərinin təkmilləşdirilməsi;

yeni layihənin 2017-ci ilin mart ayında icrasına başlanılmasından ötən 3 ay müddətində rəhbər komandanın fəaliyyəti səmərəli olub, yetkin komanda formalaşıb: «Azərbaycanın vergi sistemində vergi ödəyicilərinə xidmətin təşkili qaneedicidir. İnanıram ki, qarşılıqlı anlaşma şəraitində Azərbaycanın vergi sistemi üçün əhəmiyyət daşıyan vergi ödəyicilərinə xidmətin təkmilləşdirilməsi, xidmət çeşidlərinin idarə olunması sahəsində yeniliklərə nail olacağıq».

Layihənin digər rəhbəri, fransız Paul Katail bildirib ki, Azərbaycanın vergi orqanları çağrı və xidmət mərkəzlərinin fəaliyyəti ilə əlaqədar vergi ödəyicilərinə xidmətlərin vahid standartlarını tətbiq edərək mühüm addım atmışdır: «Bu-



**Layihənin məqsədi vergi orqanları tərəfindən vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsi, səmərəliliyin təmin edilməsi, xidmətlərə olan tələbatın müəyyən olunması, davamlı inkişaf üçün Avropa İttifaqının qabaqcıl təcrübələrinin tətbiqidir**

tədqiqat üsulları daxil olmaqla bütün zəruri idarəetmə strukturlarını, prosedurları və siyasəti müəyyənləşdirərək Vergi Məcəlləsinin asan və şəffaf tətbiqi təmin olunmalıdır.

Yeni tvinninq layihəsinin icrasına başlanılması Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasındakı səmərəli əməkdaşlığın real nəticəsidir. Aİ-nin maliyyə dəstəyi ilə həyata keçirilən bu layihə vergi ödəyiciləri ilə səmərəli əməkdaşlığın qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır. Layihənin məqsədi vergi orqanları tərəfindən vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsi, səmərəliliyin təmin edilməsi, xidmətlərə olan tələbatın müəyyən olunması, davamlı inkişaf üçün Avropa İttifaqının qabaqcıl təcrübələrinin tətbiqidir.

IOTA tərəfindən dəvət edilmiş ekspertin və Avropa İttifa-

- Qabaqcıl metodologiyalara əsaslanaraq bütün xidmət kanalları üzrə səmərəliliyin artırılması üçün məlumatların təhlili mexanizmlərinin yaradılması.

Layihənin icra müddəti ərzində ölkəmizdə olan İspaniya və Fransanın vergi administrasiyalarının mütəxəssisləri, eləcə də Aİ-nin ekspertləri qısamüddətli missiyalar çərçivəsində Vergilər Nazirliyinin əməkdaşları ilə birgə çalışacaqlar. Azərbaycanın vergi orqanı həmin ölkələrin vergi administrasiyalarının ən yaxşı təcrübələrini ətraflı şəkildə öyrənəcək, yenilikləri tətbiq edəcək. Layihəyə əsasən, Vergilər Nazirliyinin və layihədə iştirak edən digər qurumların işçi heyətinin Aİ ölkələrinə təlim səfərlərinin təşkili, treninqlər, seminarlar, tədris, təlim kursları, təcrübə mübadiləsi nəzərdə tutulur.

Layihənin İspaniyadan olan rəhbəri Joze Munis bildirib ki, na baxmayaraq, xidmətlərin təkmilləşdirilməsinin nazirliyin strateji istiqamətləri, prinsip və xidmət standartları ilə uyğunluğunun təmin edilməsi məqsədilə iş proseslərinin təkmilləşdirilməsi və bütün xidmət kanallarında xidmətlərin təminatının keyfiyyəti ilə bağlı kollektiv tələblər Avropa İttifaqının tvinninq alətinin dəstəyi ilə yerinə yetirilməlidir. Bu baxımdan, layihə Azərbaycanın vergi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində atılan mühüm addımlardandır. Layihə Vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı strategiyası və Fəaliyyət Planının işlənib hazırlanmasına da öz töhfəsini verəcəkdir». Onun sözlərinə görə, layihənin gedişində müəyyən texniki məsələlər üzrə dəyişikliklər gözlənilsə də, ümumi işin sistemli şəkildə davam etdirilməsi nəzərdə tutulur.

**ELBRUS**

# Bank sektorunun sağlamlaşdırılması, ümumilikdə, iqtisadiyyatın sağlamlaşdırılması deməkdir



Bu gün iqtisadiyyatın qeyri-neft sektorunun, o cümlədən bu sahələrin inkişafının başlıca maliyyə təminatçılarından olan bank sektorunun qarşısında yeni tələblər qoyulur. Mövzu ilə bağlı suallarımızı millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə cavablandırır.

***- Mahir müəllim, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi»ndə dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması əsas hədəflərdən biri kimi götürülmüşdür. Bu istiqamətdə hansı konkret addımlar atılıb, hazırda nə kimi işlər görülməkdədir?***

- Strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, dayanıqlığını, sosial rifahın daha da artırılmasını təmin etmək, qlobal çağırışlara cavab verməklə investisiyalar cəlb etmək, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində ölkəmizin dünya iqtisadiyyatında mövqeyini gücləndirmək məqsədi daşıyır. Bu hədəflər arasında bank-maliyyə sisteminin inkişaf etdirilməsi özünəməxsus yer tutur. Bu sektorun əsas məqsədi ölkə iqtisadiyyatının inkişafında əvvəlki aparıcı rolunu təmin etməkdir. Bu sahədə strukturun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılmasına, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqinə, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin «üzən məzənnə» rejimi üzərində təkmilləşdirilməsinə, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə gətirib çıxaracaqdır.

Azərbaycanda bəzi bankların birləşdirilməsi, konsolidasiya edilməsi, eləcə də yeni maliyyə qurumlarının yaradılması və informasiya-kommunikasiya sahəsində innovativ xidmətlər vasitəsilə insanların bu sektora çıxışının asanlaşdırılması əsas istiqamətlərdəndir. Strateji yol xəritələri qəbul olunduqdan sonra Azərbaycanda kredit bürolarının yaradılması ilə bağlı qanun layihəsi hazırlanıb. Eyni zamanda, sahibkarlıq fəaliyyətinin daha da gücləndirilməsi, inkişafı ilə bağlı elektron hökumətin tətbiqi öz müsbət təsirini göstərməkdədir. İpoteka Fondunun «Elektron hökumət» portalına inteqrasiyasının təmin olunması da əhalinin maliyyə mənbələrinə çıxışının asanlaşdırılmasına yönəldilmiş addımdır.

***- Dünya maliyyə bazarının qloballaşması və bu prosesin Azərbaycan bank sisteminin inkişafına təsiri barədə nə deyə bilərsiniz?***

- Azərbaycan son 10 ildə dünyada iqtisadi artım tempinə görə ön sıralarda qərar tutmuşdur. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri-neft iqtisadiyyatı inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmış, dövlətin balansında olan aktivlər artmış və ÜDM-in həcmini aşan səviyyədə strateji valyuta ehtiyatları yaradılmışdır ki, bunun sayəsində ölkəmiz dünya iqtisadiyyatında özünəməxsus yerlərdən birində qərarlaşmışdır.

Azərbaycanda baş verən iqtisadi prosesləri nə dünyadan, nə də regiondan ayrı təsəvvür etmək mümkün deyil. Bu gün Azərbaycan iqtisadiyyatı, xüsusilə enerji sahəsində fəaliyyətimiz Avropanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayır, ölkəmiz hazırda dünyanın 11 böyük logistik mərkəzini özündə birləşdirir. Biz «Əsrin müqaviləsi»ni reallaşdıran, TAP və TANAP kimi çox əhəmiyyətli beynəlxalq layihələrin həyata keçirilməsində yaxından iştirak edən bir dövlətik. Bu nöqteyi-nəzərdən, dünya iqtisadiyyatında baş verən hadisələrin Azərbaycan iqtisadiyyatından yan keçməyəcəyi də aydın məsələdir. Digər valyutalarla bərabər, Azərbaycan manatının da dollardan asılılığını nəzərə alsaq, dünyada baş verən hadisələrin ölkənin həm ümumi iqtisadiyyatına, həm də bank-maliyyə sektoruna təsiri anlaşılandır. Azərbaycan iqtisadiyyatı açıq iqtisadiyyatdır. Bu iqtisadiyyatın daha da böyüməsi üçün uzaq-yaxın ölkələrlə iqtisadi əlaqələrin qurulması zəruridir. Buna görə də ABŞ-da FET tərəfindən dolların qiymətinin qaldırılması avtomatik olaraq Azərbaycanda da dollara tələbatın və eləcə də dolların bazar qiymətinin artmasına gətirib çıxardı. Bu isə öz növbəsində iqtisadi siyasətin manevr imkanlarına məhdudlaşdırıcı təsir etməklə yanaşı, bankların valyuta mövqeyinin zəifləməsinə səbəb oldu.

2014-cü ildən başlayaraq neftin qiymətlərinin kəskin azalması, ticarət tərəfdaşımız olan ölkələrdəki iqtisadi böhran nəticəsində Azərbaycanda iqtisadi artım sürətinin yavaşıması, institusional və struktur çağırışlar, tədiyyə balansı və qeyri-neft büdcə kəsiri, maliyyə-bank sektorunda baş verən proseslər fonunda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yarandı.

***- Yeni yanaşmanı nəzərə alsaq, iqtisadiyyatın real sektorunun inkişafında bankların rolu nədən ibarətdir?***

- Dünya iqtisadiyyatını bank sektorundan kənarda təsəvvür etmək mümkün deyil. Çünki bank sektoru iqtisadiyyatda ən aparıcı, eləcə də stimullaşdırıcı sahədir. İstər beynəlxalq, istərsə də regional layihələrin həyata keçirilməsini planlaşdırarkən, ilk növbədə, onun iqtisadi əsaslarını hesablamaq lazım gəlir: layihəyə nə qədər vəsait qoyulacaq, bu vəsait hansı müddətə geri alınacaq, maddi qazanc nə olacaq və s. Son zamanlar Azərbaycanın bank sektorunda baş verən hadisələr ölkədə bütün iqtisadi sahələrə təsir etməkdədir. Yəni bank sektoru kreditləşməni məhdudlaşdırdıqda ölkədə iqtisadi aktivlik zəifləyir, insanların bazara çıxışı çətinləşir və nəticədə ticarət dövriyyəsi aşağı düşür. Bütün bu hadisələrin episentrində isə bank sektoru durur. Ona görə də bank sektorunu nəinki Azərbaycan iqtisadiyyatının, bütövlükdə dünya iqtisadiyyatının lokomotivi hesab etmək olar.

***- Bank sektorunun inkişaf perspektivlərini nədə görürsünüz? Bu sahədə hansı işlərin görülməsi tez bir zamanda öz real nəticəsini göstərə bilər?***

- Bank sektoru Azərbaycan iqtisadiyyatının son 15 illik inkişafının ayrılmaz qolu olmuşdur. Müstəqilliyimizin ilk illərindəki bank sektorunun fəaliyyətini indiki dövrlə müqayisə etsək, gözlərimiz qarşısında tam fərqli bir mənzərə canlanar. Ölkə iqtisadiyyatının digər sahələri inkişaf etdikcə yeni tələbatlara cavab verən bank-maliyyə sektoru da inkişaf etmişdir. Amma təəssüf ki, son vaxtlar, xüsusilə 2015-ci ildən bəri Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində banklara olan etimad özünü tam doğrulda bilmədi. Xüsusilə banklarda kredit faizlərinin yüksək olması, bəzi insanların maliyyə savadsızlığından istifadə edən bankların xoşagəlməz hərəkətləri, qanunsuz əməliyyatları nəticədə vətəndaş-bank çəkişmələrinə yol açdı. Azərbaycan vətəndaşlarının böyük bir hissəsi məhz bankların belə yarıtmaz fəaliyyəti ucbatından ziyan gördü. Təsadüfi deyildir ki, ölkə prezidenti çıxışlarından birində qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatına ən çox zərbə vuran bank sektoru olmuşdur.

Artıq ölkə iqtisadiyyatının müxtəlif sahələrində olduğu kimi, bank sektorunda da ciddi islahatlara başlanılmışdır. Bankların iqtisadi inkişafda rolunun artırılması və qeyri-neft sektorunun diversifikasiyası, real sektorun, xüsusilə də qeyri-neft sektorunun maliyyə resurslarına olan tələblərini düzgün qiymətləndirməklə sektora kredit qoyuluşlarının yüksəldilməsi, Azərbaycanın bütün bölgələrində biznes subyektlərinin, həmçinin əhalinin keyfiyyətli maliyyə xidmətlərinə çıxışının təmin edilməsi, nağdsız ödənişlərin və elektron bankçılığın miqyasının genişləndirilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

2015-2016-cı illərdə Azərbaycanda təxminən 11 bank bağlanmışdır ki, onların likvidliyi aşağı düşdüyündən çox təhlikəli vəziyyət yaranmış, bankların bağlanmaqdan başqa yolu qalmamışdır. Bu zaman vətəndaşlarımızın zərər görməməsi üçün, məbləğindən və faizindən asılı olmayaraq, əmanətlər son üç il müddətində sığortalandı. Çünki əhalinin böyük hissəsinin təxminən 1 milyard manata yaxın vəsaiti həmin banklarda yerləşirdi. Məhz bu qərardan sonra həm insanlar, həm də onların depozitləri böyük ziyandan qurtula bildi.

**Azərbaycanın bütün bölgələrində biznes subyektlərinin, həmçinin əhalinin keyfiyyətli maliyyə xidmətlərinə çıxışının təmin edilməsi, nağdsız ödənişlərin və elektron bankçılığın miqyasının genişləndirilməsi istiqamətində məqsədyönlü işlər aparılır**

***- Kredit təşkilatlarının maliyyə baxımından sağlamlaşdırılması üçün hansı tədbirlər görülməlidir?***

- Yeni yaradılmış Maliyyə Bazarlarına Nəzarət Palatası bu sahənin sağlam fəaliyyəti üçün ciddi tədbirlər görür. Yarıtmaz fəaliyyəti ilə seçilən bankların bağlanması, konsolidasiyası və bu qəbildən olan bir sıra digər məqsədyönlü tədbirlər kredit təşkilatlarının sağlamlaşdırılmasına gətirib çıxaracaqdır. Biz nə qədər maliyyə dayanıqlığı möhkəm olan bank-maliyyə sektoru qura bilsək, Azərbaycan iqtisadiyyatının da dayanıqlığı o qədər təmin ediləcəkdir. Bunun üçün, təbii ki, yerli sahibkarların fəaliyyətinə, onlarla iş birliyinə xüsusi diqqət yetirilməlidir. Bu istiqamətdə xarici kapitalın, investorların Azərbaycana cəlb olunması ən vacib komponentlərdəndir. Bununla bağlı da çox mühüm işlər görülüb və hazırda da davam etdirilir.

Bu gün ölkəmizdə siyasi sabitlik təmin olunub, iqtisadi islahatlar durmadan davam etdirilir. Ötən 2016-cı ili Azərbaycanda «islahatlar ili» adlandırmaq olar. Artıq ölkədə likvidliyi təmin olunmayan, əhalinin etibar etmədiyi bank sistemi yoxdur. Son vaxtlar aparılan audit yoxlamaları, iqtisadiyyatın digər sahələrində olduğu kimi, bank sahəsində də sağlamlaşdırma tədbirlərinin davam etdirildiyini göstərir.

***- Əhalinin, eləcə də hüquqi şəxslərin əmanətlərinin daha yaxşı qorunması üçün daha hansı tədbirlər planlaşdırılır?***

- Bildiyiniz kimi, dövlət başçısı «Əmanətlərin tam sığortalanması haqqında» Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli Qanununun tətbiq olunması barədə sərəncam imzalayıb. Qanunun məqsədi qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyini qorumaq, bank sisteminin dayanıqlığını təmin etmək, əmanətçilərin bank sisteminə etibarını gücləndirməkdir. Qanuna görə, faizləri Əmanətlərin Sığortalanması Fondu tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər, məbləğindən asılı olmayaraq, bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa, lisenziyaya malik olan Fondun iştirakçı bankları tərəfindən üç il müddətində tam sığortalanır. Əmanətçilərin bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa malik banklarda mövcud olan və illik faiz dərəcələri Əmanətlərin Sığortalanması Fondunun müəyyən etdiyi illik faiz dərəcəsi həddindən yuxarı olan əmanətləri əmanətçilərin öz müraciəti əsasında müddəti qurtarmamış əmanət müqavilələrində bu qanunun tələblərinə uyğun olaraq tam sığortalanır. Qanuna müvafiq olaraq, müddəti qurtarmamış əmanət müqavilələrində dəyişikliklər edildikdə, həmin dəyişikliklər edildiyi günə qüvvədə olan müqavilənin şərtlərinə uyğun olaraq, faizlər tam məbləğdə hesablanıb əmanətçiyə ödənilir.

Maliyyə Bazarlarına Nəzarət Palatasından verilən məlumata görə, artıq banklarda sığortalanmış əmanətlərin vətəndaşlara çatdırılması 100% təşkil edir. Lakin qorunmayan əmanətlərlə bağlı proses hələ davam etməkdədir, həll yolları araşdırılır. Bu məqsədlə bağlanmış bankların əmlakının və aktivlərinin satılması üçün məhkəmə qərarları olmalıdır. Bu istiqamətdə işlər gedir və həmin bankların həm kapitalının, həm də aktivlərinin bazarda satışından sonra əmanətlərin qaytarılması mümkün olacaq.

***- Dünya bank sistemində ixtisaslaşmalar mövcuddur. Məsələn, bir çox ölkələrdə bank sistemi aqrar, ipoteka bankları üzrə sahələrə bölünüb. Bizdə belə ixtisaslaşmalar ola bilərmi?***

- «Strateji Yol Xəritəsi»ndə əhalinin maliyyə mənbələrinə çıxışının yaxşılaşdırılması ilə bağlı görülən tədbirlər içərisində aqrar, ipoteka, sənaye və digər infrastruktur sahələrini maliyyələşdirən bankların sahələrə ayrılması planlaşdırılır. Bu gün Azərbaycanda ayrı-ayrılıqda ixtisaslaşmasalar mövcuddur və həmin sahələri əhatə edə biləcək banklar fəaliyyət göstərir. Biz hansısa bir bankın sata biləcəyi məhsulu analiz etsək, görərik ki, bu bank ipoteka kreditləri, aqrar sahə üçün kənd təsərrüfatı kreditləri verməklə yanaşı, sənaye krediti də verir, eyni zamanda, ticarət dövriyyəsinin təmin olunması ilə bağlı kreditlər də ayırmaq imkanına malikdir.

Müasir dünyamız tələb edir ki, banklar sahələşdirilsin və belə olan halda, orada çalışan əməkdaşlar da gələcəkdə bu sahənin bilicisi, ixtisaslaşmış mütəxəssis olacaqlar. Aqrar sektora dəfələrə kredit ayırmış kredit təşkilatı buradakı bütün boşluqları, gələnəkləri yaxşı bildiyi üçün bu sahələrə kredit ayırması işi həm asanlaşır, həm də kreditin düzgün verilməsi təmin olunur.

Artıq bu istiqamətdə bankların yaradılmasının təməl prinsipləri qoyulub: İpoteka Fondu fəaliyyət göstərir və bəzi banklar da artıq buranın üzvüdürlər. Aqrar sektorda fəaliyyət göstərən banklar var ki, regionda filiallarını açmaqdadırlar. Sənaye sektorunu maliyyələşdirən banklar da mövcuddur .

***- İqtisadi gündəliyin aktual mövzularından biri də bank sektoru və vergi məsələləridir. Vergi islahatlarının bank sektorunun inkişafında rolunu nədə görürsünüz?***

- İqtisadi proseslərin mühüm tərkib hissəsi olan vergi islahatları hər bir ölkənin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində həlledici rol oyayır. Düzgün aparılmış vergi siyasəti nəticəsində vergi intizamı yaranır, dövlət büdcəsinə daxilolmalar artır, bir sözlə, iqtisadiyyat tənzimlənir və idarə olunur.

Azərbaycanda aparılan iqtisadi islahatlar arasında ən effektli vasitələrdən biri nağdsız ödənişlərin tətbiqidir. Bu, ilk növbədə, şəffaflığı təmin edir və «kölgə iqtisadiyyatı»nı aradan qaldırır. Nağdsız əməliyyatların aparılmasında bankların da rolu əhəmiyyətli dərəcədə artır. Nağdsız ödənişlər əməliyyatların bankdan keçməsini təmin edir ki, bu da bankların mənfəətinin artmasına səbəb olur. Bu sahədə əldə olunan müsbət dinamika artıq 2017-ci ilin ilk aylarından özünü göstərməkdədir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Nağdsız hesablaşmalar kimlər üçün məcburidir?

**Bu ilin əvvəlindən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanun nağd hesablaşmaların məhdudlaşdırılması üçün hüquqi baza təşkil edir. Qanunun qəbul olunmasında məqsəd Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdir.**

Bununla belə, nağd əməliyyatlarla bağlı kiçik vergi ödəyiciləri, xırda bizneslə məşğul olan sahibkarlar, kənd adamları qanunun onlara hansı formada şamil olunması ilə maraqlanırlar.

***«Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.5-ci maddəsinə görə, vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:***

- kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;
- əlvan və qara metal qırıntılarının qəbulu;
- utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;
- utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu.

Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti həyata keçirən vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

***Lakin bu müddəalardan və hədlərdən asılı olmayaraq, aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilməlidir:***

- vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;
- «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» Azərbaycan Respublikası qanunları ilə müəyyən edilmiş ödənişlər;
- dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;
- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;
- stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;
- faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;
- dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);
- təhsil haqlarının ödənilməsi;
- turagentlərə ödəmələr.



Yeri gəlmişkən, qeyd edək ki, nağd pul hesablaşmaları nəzarət-kassa aparatı (NKA) tətbiq edilməklə aparıldığından obyektini uçota qoymuş vergi ödəyicisi NKA-nın qeydiyyata alınması üçün ərazi üzrə vergi orqanına «Nəzarət-kassa aparatının qeydiyyata alınması (qeydiyyatdan çıxarılması) haqqında ərizə» verməlidir. NKA-nın qeydiyyata alınması barədə ərizə vergi orqanına elektron formada təqdim edilə bilər. Elektron formada ərizə həm vergi ödəyicisi tərəfindən, həm də müqavilə əsasında vəkil olunmuş Servis Texniki Xidmət Mərkəzi (STXM) tərəfindən göndərilir. Vergi orqanlarında NKA-lar qeydiyyatdan keçirildikdən sonra hazırlanmış qeydiyyat vərəqəsi 2 iş günü ərzində yalnız vergi ödəyicisinin müraciəti əsasında kağız daşıyıcılarından istifadə olunmaqla təqdim edilə bilər. Digər hallarda isə NKA-nın qeydiyyat vərəqəsi proqram təminatı vasitəsilə vergi ödəyicisinin elektron qutusuna ötürülür. STXM tərəfindən quraşdırılmış NKA-nın çekində vergi ödəyicisinin adı və VÖEN-i, NKA-nın quraşdırıldığı ünvan, habelə təsərrüfat subyektinin adı və fəaliyyət növü əks etdirilməlidir.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV-nin əvəzləşdirilməsi

***Tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş xidmət təhvil verilmədən alınmış avans ödənişinə görə xidmət göstərən müəssisə tərəfindən təqdim olunmuş elektron vergi hesab-fakturası ƏDV-nin əvəzləşdirilməsinə əsas verirmi?***

Vergi Məcəlləsinin (VM) 173.2-ci maddəsində qeyd edilmişdir ki, ƏDV tutulan dövriyyə hesabat dövrü ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir. Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 (beş) gündən gec olmayaraq verməyə borcludur (VM, maddə 176.3).

Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir (VM, maddə 176.3-1). Nazirlər Kabinetinin 2009-cu il 28 sentyabr tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları»nın 4.5-ci bəndinə əsasən, elektron vergi hesab-fakturası malların (işlərin, xidmətlərin) alıcıya (sifarişçiyə) təqdim edilməsi barədə məlumatları özündə əks etdirən sənədlər (qaimələr, qəbzlər, müqavilələr (əqdlər), təhvil-təslim aktları və s.) əsasında doldurulmalı və bu barədə məlumat elektron vergi hesab-fakturasının «Əsas» rekvizitində öz əksini tapmalıdır. Təsdiqedici sənədlər olmadıqda, elektron vergi hesab-fakturası ƏDV-nin əvəzləşdirilməsinə əsas vermir.

**Qeyd olunanlara əsasən:**

Elektron vergi hesab-fakturası malların (işlərin, xidmətlərin) alıcıya (sifarişçiyə) təqdim olunması barədə məlumatları özündə əks etdirən sənədlər (qaimələr, qəbzlər, müqavilələr (əqdlər), təhvil-təslim aktları və s.) əsasında verildiyindən, belə təsdiqedici sənədlər olmadan verilmiş elektron vergi hesab-fakturası ƏDV-nin əvəzləşdirilməsinə əsas vermir.

ƏDV tutulan dövriyyə hesabat dövrü ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarət olduğundan, vergi ödəyiciləri tərəfindən ƏDV-nin elektron vergi hesab-fakturası xidmətlərin (işlərin) təhvil verildiyi hər ay üçün ayrıca təqdim edilir və alınmış elektron vergi hesab-fakturaları üzrə ödənilmiş ƏDV məbləğləri Vergi Məcəlləsinin 175-ci maddəsinin müddəalarına uyğun olaraq əvəzləşdirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Vergi ödəyicisinin siyahıya alınmış əmlakının ticarət şəbəkələrində satışı

Nazirlər Kabinetinin 16 iyun tarixli qərarı ilə «Vergi ödəyicisinin siyahıya alınmış əmlakının ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili Qaydaları» təsdiq edilmişdir.

Vergilər Nazirliyinin Vergi öhdəliklərinin icrasına nəzarət departamentinin İcra qurumları ilə işin təşkili şöbəsinin baş dövlət vergi müfəttişi Nizami Əhmədovun sözlərinə görə, burada ticarət şəbəkələri dedikdə, icra xidməti ilə bağlanmış müqavilə əsasında siyahıya alınmış əmlakın vergi ödəyicisi olan fiziki və ya hüquqi şəxslər tərəfindən satışının həyata keçirildiyi təsərrüfat subyekti, yarmarka və digər yerlər başa düşülür. Satışın elektron şəkildə həyata keçirən ticarət şəbəkələri dedikdə isə icra xidməti ilə bağlanmış müqavilə əsasında siyahıya alınmış əmlakın vergi ödəyicisi olan fiziki və ya hüquqi şəxslər tərəfindən satışının «Elektron ticarət» haqqında Qanunun tələblərinə əsasən informasiya sistemlərindən istifadə etməklə həyata keçirildiyi elektron satış mərkəzləri başa düşülür: «Siyahıya alınmış əmlakın təsərrüfat subyektində, yarmarkada və digər yerlərdə satışı ilə bərabər, informasiya sistemlərində də satışı həyata keçirilə bilər. Bunun üçün ticarət şəbəkələrinin rəsmi internet saytı olmalıdır və həmin sayt 3 dildə - Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərməlidir. Siyahıya alınmış əmlakın elektron ticarət şəbəkəsində satışı ilə bağlı məlumatlar ictimaiyyətə həmin internet saytı, digər internet saytları və sosial şəbəkələr vasitəsilə çatdırılacaq. Belə məlumatları avtomatik şəkildə əldə etmək istəyən şəxslər ticarət şəbəkəsinin istifadəsində olan rəsmi internet saytında qeydiyyatdan keçməklə, həmin sayta abunə ola bilərlər».




N.Əhmədov qeyd etmişdir ki, vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı icra xidmətinin müəyyən etdiyi ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) müqavilə əsasında təşkil ediləcək: «Bir qayda olaraq, siyahıya alınmış daşınar əmlakın hər birinin ayrı-ayrılıqda dəyəri 5000 manatdan artıq deyildirsə, həmin əmlakın ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının həyata keçirilməsi məqsədilə icra məmurları tərəfindən sifarişlər veriləcək. Əmlakın qiymətləndirilməsinə dair müvafiq akt icra qurumuna daxil olduqdan sonra vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı ilə bağlı Qaydaların 1.3-cü bəndində qeyd olunan şəxslərə dərhal müvafiq yazılı sifarişlər veriləcək. Bu zaman Vergi Məcəlləsinin 90.3.3.1 - 90.3.3.5-ci maddələrində nəzərdə tutulan sənədlər sifarişə əlavə edilməlidir. Siyahıya alınmış əmlakın təsərrüfat subyektində, yarmarkada və digər yerlərdə satışı ilə bağlı sifariş verildikdən sonra icra məmuru tərəfindən həmin əmlakın yuxarıda qeyd olunan şəxslərə təhvil-təslim aktı əsasında təhvil verilməsi üçün tədbirlər görüləcək».

Vergi ödəyicisinin siyahıya alınmış əmlakının elektron ticarət şəbəkəsində satışı zamanı satılan əmlakın dəyəri alıcı tərəfindən «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.1-ci maddəsinə əsasən satışını elektron şəkildə həyata keçirən şəxsə nağdsız şəkildə və ya çatdırılma zamanı nağd qaydada ödənilməlidir. Satışını elektron şəkildə həyata keçirən şəxs satılan əmlakın dəyərinin ona məxsus rəsmi internet saytı vasitəsilə nağdsız şəkildə ödənilməsi üçün zəruri texniki imkan yaratmalıdır.

N.Əhmədovun sözlərinə görə, vergi ödəyicisinin siyahıya alınmış əmlakının ticarət şəbəkəsində satışı nəticəsində əldə olunmuş məbləğ 3 (üç) bank günü müddətində satışı həyata keçirmiş şəxs tərəfindən icra məmurunun əvvəlcədən müəyyən etdiyi bank hesabına köçürüləcək. Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satılmasından əldə edilən məbləğdən Vergi Məcəlləsinin 90.4-cü maddəsində nəzərdə tutulmuş qaydada istifadə olunacaq: «Elektron ticarət şəbəkəsində satılan əmlakı almaq istəyən şəxsə icra məmuru tərəfindən həmin əmlakla yerində tanış olmaq imkanı yaradılmalıdır. Vergi ödəyicisinin siyahıya alınmış əmlakı ticarət şəbəkəsində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) 3 ay ərzində satılmadıqda onun qiyməti 20 faizə qədər, bundan sonrakı 2 ay ərzində satılmadıqda isə 40 faizə qədər icra məmuru ilə yazılı şəkildə razılaşdırılmaqla aşağı salına bilər. İcra məmuru tərəfindən təhvil verilən, lakin satılmayan siyahıya alınmış əmlaka ayda bir dəfədən az olmayaraq baxış keçirilməlidir».

Qeyd olunmuşdur ki, vergi ödəyicisinin siyahıya alınmış əmlakı ticarət şəbəkəsində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) 6 ay ərzində satılmadıqda, həmin əmlakın satışı dayandırılır və icra məmuru tərəfindən verilmiş sifariş qüvvədən düşür. Bu zaman siyahıya alınmış əmlak icra məmuru tərəfindən təhvil-təslim aktı ilə geri alınır: «Satılmayan əmlaklar barədə məlumatlar satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkəsinin istifadəsində olan rəsmi internet saytından çıxarılır. Siyahıya alınmış əmlakın satışı elektron ticarət şəbəkələri vasitəsilə həyata keçirildikdə, sifariş verildiyi gün siyahıya alınmış əmlakın fotoşəkillərinin rəsmi internet saytında yerləşdirilməsi satışı həyata keçirən şəxs tərəfindən təmin edilir. Bu Qaydaların 1.3-cü bəndində qeyd olunan şəxslər satışa çıxarılmış əmlaklar, satışı təmin edilmiş və ya satışı mümkün olmadığı üçün geri qaytarılmış əmlaklar, habelə siyahıya alınmış əmlakın satışından əldə olunan vəsaitlər barədə aylıq məlumatı Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq nazirliyə təqdim etməlidirlər. Qaydaların tələblərinin pozulmasına görə aidiyyəti şəxslər və alıcılar qanunvericiliyə uyğun qaydada məsuliyyət daşıyırlar».

**AYTƏN**

# Azərbaycanın hesabatı BMT-yə təqdim olunub

Azərbaycan BMT üzvü olan dövlətlərin 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Bu sahədə işlərin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Milli Əlaqələndirmə Şurasının ikinci iclasında Nyu-Yorkda keçiriləcək Yüksək Səviyyəli Siyasi Forum üçün BMT-nin müəyyən etdiyi tematik plana uyğun olaraq 6 Dayanıqlı İnkişaf Məqsədi və hər il nəzərdən keçiriləcək Dayanıqlı İnkişaf üçün Qlobal Tərəfdaşlıq üzrə Azərbaycanın ilkin hesabatının hazırlanması qərara alınıb.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov tərəfindən BMT-nin baş katibinə ünvanlanmış məktuba əsasən, Azərbaycan hesabat verəcək 44 ölkənin siyahısına daxil edilib. Yüksək Səviyyəli Siyasi Forum üçün Azərbaycanın Könüllü Milli Hesabatı ilə bağlı Əsas Məqamlar BMT-nin İqtisadi və Sosial Şurasına təqdim olunub və BMT-nin rəsmi internet səhifəsində (www.sustainabledevelopment.un.org) yerləşdirilib.

Bundan əlavə, İqtisadiyyat Nazirliyinin rəhbərliyi, yerli ekspert və DİM-lər üzrə yaradılmış işçi qruplarının iştirakı ilə Yüksək Səviyyəli Siyasi Forum üçün Azərbaycanın Könüllü Milli Hesabatının yekun variantı aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla hazırlanıb və BMT-nin müəyyənləşdirdiyi prosedurlara uyğun olaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası tərəfindən BMT-nin İqtisadi və Sosial Şurasına (ECOSOC) təqdim edilib. Hesabatla BMT-nin rəsmi internet səhifəsindən (www.sustainabledevelopment.un.org) tanış olmaq olar.

# Universitet məhsul istehsal edəcək

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru Mustafa Babanlı II Startap və İnnovasiya Festivalında çıxış edərək deyib ki, rəhbərlik etdiyi təhsil ocağı «Made in Azerbaijan» brendi altında məhsullar istehsal edərək bazara çıxaracaq. Rektorun sözlərinə görə, indiyədək universitetin «eazi Start» Startap və İnnovasiya Mərkəzində onlarla layihə hazırlanıb. Festivalda təqdim olunan 20 layihənin özəlliyi onların prototipinin hazırlanmasıdır. ADNSU bu ilin sonunadək həmin layihələrdən bir necəsi üzrə istehsalın təşkil edilməsini və məhsulların «Made in Azerbaijan» brendi altında bazara çıxarılmasını planlaşdırır.

Qeyd olunub ki, ADNSU-da yeni açılan Lazer Mərkəzi ilk mərhələdə təhsil mərkəzi kimi fəaliyyət göstərməklə tələbələrə bu sahədə biliklərin verilməsini nəzərdə tutur. Lazımi nəzəri baza və biliklərə yiyələndikdən sonra burada iqtisadiyyat və sənayenin müxtəlif sahələrində istifadə olunan avadanlıqların təmiri və bərpasının həyata keçirilməsi, eyni zamanda lazer başlıqlarının istehsalının təşkili nəzərdə tutulub.

# Partnyor vergi ödəyicilərinin sıraları genişlənir

Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində atılan addımlardan biri «Yaşıl dəhliz» prinsipi üzrə şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli xidmətlərin göstərilməsidir. Partnyor ödəyici statusuna malik olmaq üçün vergi ödəyiciləri bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər, ilk növbədə, vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalı, saxta sənədlər qəbul və təqdim etməməli, barəsində son 3 ildə cinayət təqibi olmamalıdır.

«Yaşıl dəhliz»ə həm Vergilər Nazirliyinin, həm də vergi ödəyicisinin təşəbbüsü ilə qoşulmaq mümkündür. Vergilər Nazirliyi qeyd olunan meyarlara cavab verən vergi ödəyicilərini müəyyən edir və onlara «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» unikal koda malik bildiriş verir. Vergi ödəyicisi partnyor vergi ödəyici statusunun əldə olunması üçün vergi orqanlarına müraciət etdikdə həmin müraciət vergi orqanlarının müvafiq struktur vahidi tərəfindən araşdırılır, vergi ödəyicisinin fəaliyyəti göstərilən meyarlara uyğun gəldiyi halda, ona «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş təqdim edilir, uyğun gəlmədiyi halda isə fəaliyyətinin göstərilən meyarlara tam və ya qismən uyğun olmaması barədə məlumat verilir.

Vergi orqanları tərəfindən bu ilin yanvar ayının 25-dən vergi ödəyicilərinə partnyorluq statusunun verilməsinə başlanılıb. İndiyədək partnyor vergi ödəyicisi statusunun alınması üçün müraciət edən 690 vergi ödəyicisi barədə məlumatlar araşdırılıb, onlardan 447 nəfərinin elektron ünvanına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş göndərilib.

**İndiyədək partnyor vergi ödəyici statusunun alınması üçün müraciət edən 690 vergi ödəyicisi barədə məlumatlar araşdırılıb, onlardan 447 nəfərinin elektron ünvanına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş göndərilib**

Vergi ödəyicilərinə xidmət mərkəzlərində partnyor ödəyicilər üçün xüsusi imkanlar yaradılıb, onlara «Yaşıl dəhliz» vasitəsilə növbədənkənar fərdi və sürətli xidmətlərin göstərilməsi məqsədilə xüsusi masa ayrılıb. Vergi orqanları ilə əlaqələndirilməsi məqsədilə hər bir partnyor ödəyici üçün vergi əməkdaşlarından kuratorlar ayrılıb. Onlar partnyor ödəyicilərin müraciəti əsasında ünvanlı xidmətlər göstərməli, vergi qanunvericiliyində dəyişiklik olarsa, bu barədə vergi ödəyicisini məlumatlandırmalı, onun mənafeləri üçün qabaqlayıcı tədbirlər həyata keçirməli, partnyor ödəyicilərin hər hansı uyğunsuzluğu yaranarsa, bu məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görməlidir.

Partnyor ödəyicilərə xidmətlər ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında göstərilir və partnyor ödəyicinin istəyinə uyğun olaraq ünvanlı xidmət vaxtı razılaşdırılmaqla onun iş yerində həyata keçirilə bilər. Belə ödəyicilərə ənənəvi və innovativ üsullarla xidmətlər göstərilir. Ənənəvi xidmətlərə şifahi xidmətlər, elektron xidmətlər, sənəd qəbulu, hazır sənədlərin verilməsi, elektron sənəd mübadiləsi xidmətləri, SMS məlumatlandırma və ünvanlı xidmətlərin göstərilməsi daxildir. Ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin də təqdim edilməsi nəzərdə tutulur. Belə xidmətlərə videobağlantılar, çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir.

Partnyor vergi ödəyicilərinin vergi qanunvericiliyinin tətbiqi, ziddiyyətli məqamların aydınlaşdırılması, fəaliyyəti üzrə həyata keçirilən vergi nəzarəti tədbirləri, vergi orqanları tərəfindən səlahiyyətləri daxilində göstərilən xidmətlər və digər məsələlərlə bağlı uçotda olduğu vergi orqanına etdiyi müraciətləri xüsusi nəzarətə götürülür, Vergi Məcəlləsinə və «İnzibati icraat haqqında» Qanuna uyğun olaraq müəyyən edilmiş müddətdən üç dəfə az olmaqla baxılır. Partnyor ödəyicinin müraciətinə baxılması zamanı yaranan fikir ayrılıqları həmin vergi ödəyicinin iştirakı ilə Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin istəyinə uyğun olaraq vergi ödəyicisinin iş yerində və ya vergi orqanında baxılır, həmçinin İKT-nin imkanlarından istifadə etməklə video bağlantı qurularaq müzakirə edilir. Partnyor ödəyicinin müraciətinə baxılmasının nəticəsi barədə tərtib edilmiş sənəd həmin vergi ödəyicisinin istəyinə uyğun olaraq cavablandıran vergi orqanından əldən ələ götürülür, poçt vasitəsilə və ya elektron ünvanına göndərilir.

Sahibkar partnyor vergi ödəyicisi statusunu aldıqdan sonra göstərilən meyarlara cavab vermədikdə Vergilər Nazirliyi tərəfindən bir ay müddətində həmin meyarlara cavab verməsi üçün lazımi tədbirlərin görülməsi məqsədilə məlumatlandırılır. Bu müddət bitdikdən sonra meyarlara cavab verməyən vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun ləğvi barədə» bildiriş təqdim olunaraq statusu ləğv edilir. Artıq bir partnyor vergi ödəyicisinin statusu fəaliyyətində yol verdiyi qanun pozuntularına görə ləğv olunub.

**A. NƏBİYEVA**

# İkili mühasibata qarşı mübarizə sərtləşir

**Bu gün ölkəmizdə məşğul əhalinin sayı 4,6 milyon nəfərdən artıqdır. Bunun təxminən 1,5 milyon nəfəri muzdlu işçilərdir və onlar əmək münasibətləri qanunvericiliyin tələblərinə uyğun olaraq rəsmiləşdirilmiş işçilər hesab edilir. 1,6 milyon nəfər əhali isə kənd təsərrüfatı sahəsində çalışır. Həmin sayda insan fərdi sahibkarlıqla məşğul və ya özünüməşğul əhalidir.**

Baş nazirin müavini Əli Əhmədov bildirib ki, fərdi sahibkarlıqla məşğul və ya özüməşğul əhalinin əmək münasibətlərində problemlər mövcuddur, onların əmək münasibətlərini isə tənzimləmək hələ də mümkün deyil. Onlar ya əmək münasibətlərini müvafiq dövlət orqanlarında rəsmiləşdirməyib, ya da digər formalarda əmək münasibətlərinin rəsmiləşməsinə əngəl olan pozuntulara yol veriblər. Bu isə vətəndaşların əmək və sosial qanunvericiliyin tələblərindən kənarda qalması, qeyri-rəsmi məşğulluğun yaranması deməkdir.

Ə.Əhmədov deyib ki, bəzi iqtisadi fəaliyyət sahələrinə aid qanunlarda və normativ aktlarda mövcud olan boşluqlar işəgötürənlərə öz qanunsuz əməllərini həyata keçirməyə şərait yaradır: «Məsələn, əmək münasibətlərinin rəsmiləşdirilməməsi, istifadə olunan işçilərin sayının gizlədilməsi hallarına daha çox tikintidə rast gəlinir. Mövcud tikinti qanunvericiliyi və normaları iş adamlarına imkan verir ki, işçilərinin sayını gizlədə bilsin. Xidmət müqavilələri, subpodrat münasibətləri bu mənada sahibkarların işini asanlaşdıran formalardır. Maraqlıdır ki, həm xidməti müqavilə, həm də subpodratçılıq müvafiq normativ aktlarda nəzərdə tutulub. Bu istiqamətdə nəzarət tədbirləri ilə yanaşı, qanunvericiliyin təkmilləşdirilməsinə də ehtiyac var».

Baş nazirin müavini deyib ki, hökuməti narahat edən əsas problemlərdən biri «qara mühasibat»ın mövcudluğudur. Həyata keçirilən tədbirlərə baxmayaraq, özəl sektorda əməkhaqqının ödənilməsində lazımi şəffaflıq təmin olunmur. İşəgötürənlər mühasibat uçotu sahəsindəki boşluqlardan faydalanaraq, xalq arasında yayılmış terminologiyadan istifadə etsək, «qara mühasibat»a əl atırlar, işçiyə verilən əməkhaqqının az hissəsi rəsmiləşdirilir, çox hissəsi isə qanunsuz verilir. Belə hallarda nəticə etibarilə həm hüquqi şəxs, həm də işçi vergi və məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınmış olur. Bu problem həm dövlətin iqtisadi və sosial maraqlarının, həm də işçilərin özlərinin sosial hüquqlarının pozulması deməkdir. Dövlət il ərzində milyonlarla manat vəsaitdən məhrum olur, vətəndaş isə gələcəkdə pensiya almaq hüquqlarını itirir. Bu məsələdə sahibkarların üzərinə ciddi məsuliyyət düşür: onlar işə götürdükləri hər bir işçinin sosial hüquqlarını təmin edən rəsmi müqavilə imzalamalıdırlar. Hökumətin bu istiqamətdə ciddi nəzarət tədbirlərini gücləndirəcəyini deyən Ə.Əhmədov qanunvericiliyə bəzi dəyişikliklərin ediləcəyini də vurğulayıb.

***3 milyon insan qeyri-formal əmək bazarının iştirakçısıdır***

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, Azərbaycanda əmək müqavilələrinin elektron qeydiyyat sistemi təxminən iki ilə yaxındır ki, fəaliyyət göstərir. Sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasına, bu münasibətlərin dəqiq və əhatəli uçotunun aparılmasına, əmək bazarına çevik və obyektiv, səmərəli dövlət nəzarətini təmin etməyə hesablanıb. Məqsəd ölkənin bütün muzdla çalışan əhalisini əhatə edən əmək müqavilələrinin elektron qeydiyyat sistemi vasitəsilə işçilərin əmək və gələcək layiqli pensiya təminatı üçün də etibarlı hüquqi əsas formalaşdırmaqdır. İndiyədək bu sistemdən 5 milyondan çox insan istifadə etsə də bu göstərici daha çox olmalıdır. İşəgötürənlərin böyük bir qismi yenə də öz işçilərinin adlarını rəsmiləşdirmir, onların əmək və sosial hüquqlarını pozmaqla məşğuldur. Əmək müqaviləsi ilə işləyənlərin sayı 1,5 milyon nəfər təşkil edir, 3 milyon məşğul insan isə mülki-hüquqi müqavilə ilə işləyir və xidmətlər göstərir. Onlar qeyri-formal əmək bazarının iştirakçısıdır...

***Nağdsız hesablaşmalar ikili mühasibatın aradan qaldırılmasında ən yaxşı nümunədir***

İqtisadçı-ekspert Radil Fətullayev bildirir ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasının və «qara mühasibat»ın ləğvi üçün müəssisələrin uçot sisteminin təkmilləşdirilməsi, hesablaşmaların tamamilə nağdsızlaşdırılması, beynəlxlaq mühasibat sisteminin şərtləri tətbiq edilməlidir. Vergilər Nazirliyinin son illər həyata keçirdiyi tədbirlərin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını deyən iqtisadçı əmək müqavilələrinin elektronlaşdırılması, uçot sisteminin şəffaflaşdırılması, hesablaşmaların banklar və kartlar vasitəsilə həyata keçirilməsini «qara mühasibat»ın ləğvi istiqamətində təsirli vasitələrdən biri hesab edir: «2017-ci ildən başlayaraq nağdsız əməliyyatların genişləndirilməsi, nağd çıxarılan pul vəsaitlərinə limitin tətbiqi, dövlət müəssisələri ilə bərabər, özəl şirkətlərdə maaşların kart vasitəsilə verilməsi, «Nağdsız hesablaşmalar haqqında» Qanuna yeni əlavələr və digər tədbirlər şəffaflaşmanın, vergidən yayınmanın və ikili mühasibatın aradan qaldırılmasında ən yaxşı nümunədir. «Qara mühasibat»lığa əsasən özəl şirkətlərdə rast gəlindiyini nəzərə alsaq, regionlarda sahibkarlıq subyektlərinin, iri müəssisələrin nağdsız hesablaşmalara keçidini sürətləndirmək vacibdir».

R.Fətullayev hesab edir ki, Azərbaycanın mühasibat və maliyyə sisteminin əsas tərkib hissəsi kimi maliyyə hərəkətlərinin optimallaşdırılması maliyyə nəzarəti, düzgün uçotun qurulmasında mühüm rol oynayır. Ölkəmizin milli mühasibatının beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı təkmil hüquqi baza yaradılsa da, bəzi təşkilatlarda və təsərrüfat subyektlərində mühasibatın müasir meyarlara tam uyğunlaşdırılmasında problemlər qalmaqdadır və bu hallar da aradan qaldırılmalıdır.

***Uçot sisteminin şəffaflaşdırılması vergidən yayınma hallarının qarşısını alır***

Uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara qarşı mübarizə vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir. Vergi orqanlarında uçota alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq ciddi qanun pozuntusudur və buna qarşı qanunvericilikdə müvafiq cəza tədbirləri nəzərdə tutulub. Vergilər Nazirliyi tərəfindən vergi hüquqpozmalarına qarşı aparılan mübarizə tədbirlərinin gücləndirilməsi, o cümlədən qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində görülən mühüm tədbirlərə baxmayaraq, bəzi şəxslərin vergidən yayınmaq məqsədilə uçota alınmadan fəaliyyət göstərməsi hallarına hələ də tez-tez rast gəlinir. Müşahidələr göstərir ki, bəzi işbazlar bu sahədə qanunvericiliyin kifayət qədər sərt olmamasından sui-istifadə edərək vergi orqanlarında uçota durmadan vergiləri dövlət büdcəsinə ödəməkdən yayınırlar. Ötən ilin sonlarında Vergilər Nazirliyində qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsinin yaradılması da qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına qarşı əhatəli tədbirlərə yönəlib.

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərə əsasən, sahibkarlıq sahəsində qarşıya yeni tələblər qoyulub, uçot sisteminin düzgün qurulması, vergilərin hesablanması və büdcəyə ödənilməsinin təmin edilməsi məqsədilə mühasibat işinin yeni meyarlara uyğunlaşdırılması təsbit olunub. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov bildirib ki, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin əsas məqsədlərindən biri nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, dürüst və şəffaf uçotun qurulmasıdır. Uçot sisteminin şəffaflaşdırılması ilə bağlı dəyişikliklər iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarının müəyyən edilməsi, malların alğı-satqısı prosesində hərəkət zənciri boyu sənədləşmənin aparılması, vergidən yayınma hallarının qarşısının alınması məsələlərini əhatə edir. Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunmasıdır. Artıq ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə sahəsində çalışan şəxslər üçün bu tələb 2017-ci il aprelin 1-dən qüvvəyə minib. Digər vergi ödəyicilərinə isə bu dəyişiklik 2018-ci ilin yanvarından tətbiq ediləcək.

Vergi Məcəlləsinə dəyişikliklər sırasında şəffaflığın təmin olunması ilə bağlı müddəalar da mühüm yer tutur. Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (offşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin yaradılması həmin sahədə şəffaflığın təmin edilməsinə yönəldilib. Bu məqsədlə Vergi Məcəlləsinə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlər və qeyri-rezidentlərin Azərbaycandakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərin Azərbaycan mənbəyindən gəlirlərə aid edilməsini və həmin ödənişlərdən ödəmə mənbəyində əlavə 10% dərəcə ilə verginin tutulması barədə müddəalar daxil edilib. Daha bir mühüm məsələ rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb olunmasının işlək mexanizminin müəyyən edilməsidir. Qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərə əsasən, elektron ticarət qaydasında qeyri-rezidentlərdən işlərin və xidmətlərin təqdim edilməsinə, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV alıcının olduğu yerdə tətbiq edilir.

Rəqabətli iqtisadiyyatda şəffaf mühasibat və maliyyə hesabatlılığını təmin etmək üçün peşəkar mühasiblərə ciddi ehtiyac var. Çünki hazırda müəssisələrdə mühasibat uçotu daha çox vergi hesabatlılığı üzərində qurulub. «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi»ndə və digər milli proqramlarda mühasibatda təhsilin keyfiyyətinin yüksəldilməsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması ilə bağlı prioritetlər nəzərdə tutulub.

**Elbrus CƏFƏRLİ**



«Qara mühasibat»lığa əsasən özəl şirkətlərdə rast gəlindiyini nəzərə alsaq, regionlarda sahibkarlıq subyektlərinin, iri müəssisələrin nağdsız hesablaşmalara keçidini sürətləndirmək vacibdir

## BİR CÜMLƏ - BİR XƏBƏR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi dünyanın aparıcı audit şirkətlərindən olan KPMG ilə birgə korporativ idarəetmə üzrə təlim-seminar keçirməyi planlaşdırır.

Türkiyədən «Azexport.az» portalına daxil olan ixrac sifarişlərində tütün, mühərrik yağı, şərab, nar şərabı, toyuq əti, pambıq yağı, noxud, qarabaşaq, günəbaxan yağı, quru süd və s. məhsullar üstünlük təşkil edir.

Azərbaycanda internetə daxil olmaq üçün mobil telefonlardan istifadə ilin əvvəli ilə müqayisədə 6 faizə qədər artıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu imzalanacaq.

Bolqarıstan iş adamları Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən sənaye parkları və aqroparklara investisiya yatırmaq niyyətindədirlər.

Azərbaycan neft hasilatını sutkada 35 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib.

Azərbaycan Gürcüstanda yeraltı qaz anbarının tikintisi ilə bağlı tenderdə iştirak edəcək.

# İdxal-ixrac əməliyyatları üzrə «qırmızı kanal» sistemi

«Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları»nda dəyişiklik edilməsi haqqında» dövlət başçısı tərəfindən imzalanan fərmana uyğun olaraq konsiqnasiya əməliyyatları üzrə ixrac olunan malların dəyərinin ödənişinə nəzarət sistemi yaradılıb. Yeni sistemin tətbiqi qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması, özəl sektora dövlət dəstəyinin genişləndirilməsi istiqamətində aparılan islahatların tərkib hissəsidir. Konsiqnasiya əməliyyatları üzrə ixrac olunan malların dəyərinin ödənişinə nəzarəti Dövlət Gömrük Komitəsi və Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirəcək.

Dövlət Gömrük Komitəsinin Fəaliyyətin qiymətləndirilməsi və inkişaf proqramları Baş idarəsinin rəisi İqbal Babayev bildirib ki, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarına edilən dəyişikliyə əsasən, hüquqi və fiziki şəxslər konsiqnasiya yolu ilə ixrac etdikləri malların (işlərin, xidmətlərin) müqabilində vəsaitlərin bəyan edildiyi gündən 180 gün ərzində Azərbaycandakı müvəkkil bankda açılmış hesablarına köçürülməsini təmin etməlidirlər. Konsiqnasiya yolu ilə ixrac olunan malların müqabilində valyuta nəzarəti, yəni vəsaitin vaxtında köçürülməsinə nəzarət Dövlət Gömrük Komitəsinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən həyata keçirilir. Valyuta vəsaitlərinin vaxtında köçürülməsini təmin etməyən şirkətlərin bəyannamələr üzrə məlumatları hazırlanır və Maliyyə Bazarlarına Nəzarət Palatasına ötürülür.

Eyni zamanda, ixrac olunan mal və göstərilən xidmətə görə vəsaitin ölkəyə gətirilməsini təmin etməyən şirkətlər barəsində ciddi tədbirlərin görülməsi üçün plan hazırlanır. Tədbirlər planına əsasən, Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə «qırmızı kanal» sisteminin tətbiq edilməsini planlaşdırır. İxrac olunan mal və göstərilən xidmətə görə vəsaitin ölkəyə gətirilməsini təmin etməyən şirkətlər barəsində Maliyyə Bazarlarına Nəzarət Palatası öz səlahiyyəti çərçivəsində müvafiq tədbirlər görəcək. Bu layihənin əsas məqsədi ixrac olunan mallara görə ölkəyə gətirilən vəsaitin tənzimlənməsi, vəsaitə nəzarətin təmin edilməsi, çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizənin bir metodu kimi tətbiq olunur. Eyni zamanda, elektron xidmətlərin tətbiqi məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi ilə bağlıdır.

Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının üzvü İlqar Muradovun sözlərinə görə, yeni sistemin tətbiq edilməsində məqsəd ölkənin xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin daha da liberallaşdırılması və genişləndirilməsidir. Bu sahədə bazar iqtisadiyyatının tələblərinə cavab verən müasir meyarların müəyyən edilməsi də əsas istiqamətlərdən olub. Müvafiq nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və gömrük siyasətinin tətbiqinin effektivliyinin artırılması gözlənilir. Ümumi sistemin səmərəli işləməsi üçün hər bir bank müştərisi olan ixracatçı ixrac etdiyi malın dəyərinə dair məlumatları elektron şəkildə sistemə daxil etməli, vəsaitin daxil olub-olmamasını müəyyənləşdirməlidir. Bu sistem bir müddət əvvəl banklar tərəfindən də istifadə edilib.

**RƏŞAD**




İxrac olunan mal və göstərilən xidmətə görə vəsaitin ölkəyə gətirilməsini təmin etməyən şirkətlər barəsində Maliyyə Bazarlarına Nəzarət Palatası öz səlahiyyəti çərçivəsində müvafiq tədbirlər görəcək

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyul və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyul və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# İxrac stimullaşdırılır

Yeni iqtisadi modelin əsas istiqamətlərindən biri də sahibkarlığın inkişafı və genişləndirilməsidir. Bu sahədə yoxlamaların iki il müddətinə dayandırılması, lisenziya tələb edən fəaliyyət növlərinin, həmçinin icazələrin sayının azaldılması, sahibkarların hüquqlarının qorunması ilə bağlı apelyasiya şuralarının, eyni zamanda regionlarda ailə təsərrüfatlarına dəstək məqsədilə «ABAD» mərkəzlərinin yaradılması məqsədyönlü islahatların tərkib hissəsidir.

Sahibkarlığın inkişafı istiqamətində uğurla reallaşan islahatların prioritetlərindən biri ixracın genişləndirilməsi, «Made in Azerbaijan» brendi altında qeyri-neft məhsullarının istehsalının və xarici ölkələrə satılmasının təşviqidir.

İqtisadçı ekspert Fikrət Yusifov 2014-cü ilin ortalarından neftin ucuzlaşmasının, iqtisadiyyatı neftlə bağlı olan digər ölkələr kimi, Azərbaycan üçün də çətinliklər yaratdığını bildirib: «Neft gəlirlərinin azalması nəticəsində dövlət büdcəsinə daxilolmaların həcmində kəskin azalmalar müşahidə olunmağa başlandı ki, yaranmış problemin həllinin ən doğru yolu qeyri-neft sektorunun inkişafının sürətləndirilməsindən keçirdi. Bu səbəbdən də hökumət qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atmağa başladı. Prezident İlham Əliyev tərəfindən qəbul edilən və iqtisadiyyatın neftdən asılılığını azaltmağa, ixracı stimullaşdırmağa, idxaldan asılılığı zəiflətməyə və ümumilikdə, qeyri-neft iqtisadiyyatının inkişafına xidmət edən qərarlar bu sahədə əsaslı dönüş yaratdı».




Ekspertin sözlərinə görə, dövlət büdcəsinə daxilolmaların artırılmasında keyfiyyətli və rəqabətədavamlı ixrac məhsullarının istehsalı çox önəmlidir: «Xarici bazarlara çıxarılan hər bir məhsul rəqabətqabiliyyətliliyini saxlamaq üçün bütün tələblərə cavab verməlidir. İndi istənilən bazarda yüksək rəqabət mövcuddur. Rəqabətə davam gətirməyin əsas yolu isə keyfiyyət və qiymətdir. Bunlardan biri uyğun gəlmədikdə, bazarda yer tapmaq çətindir. Bu gün Azərbaycanın yeni iqtisadi siyasətinin mühüm qolu innovativ inkişafdır. Bu isə yerli və dünya bazarında rəqabətqabiliyyətliliyin, istehsalın səmərəliliyinin artırılması üçün yeni texnologiyaların yaradılması və qabaqcıl texnologiyaların cəlb edilməsi, elm tutumlu sahələrin genişlənməsi deməkdir.

> Dövlət büdcəsinə daxilolmaların artırılmasında keyfiyyətli və rəqabətədavamlı ixrac məhsullarının istehsalı çox önəmlidir

Prezident İlham Əliyevin bu il yanvarın 18-də imzaladığı «Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamda qarşıya qoyulan əsas vəzifə «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqidir. Artıq dövlət başçısının tapşırıqlarına uyğun olaraq rəqabətqabiliyyətli və ixracyönümlü yerli məhsulların xarici bazarlarda «Made in Azerbaijan» brendi altında təşviqi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən kompleks tədbirlərin görülməsinə başlanıb. «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilməsi isə bu məsələyə hökumətin verdiyi önəmin göstəricisidir. Hökumət bu məsələdə konkret hədəflər müəyyənləşdirib və həmin hədəflərə çatmaq istiqamətində bu gün çox ciddi işlər görür. Hesab edirəm ki, qarşıdakı illərdə biz bu sahədə yaxşı nəticələr əldə edə biləcəyik».

**FƏXRİYYƏ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə
## BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Turizmin inkişafı vergi daxilolmalarının artımına səbəb olacaq

Ölkənin ümumi daxili məhsulun formalaşmasında, tədiyyə balansının sabitləşməsində, əhalinin məşğulluğunun təmin olunmasında və büdcə daxilolmalarının artırılmasında xüsusi əhəmiyyətə malik olan sahələrdən biri də turizmdir.

İqtisadçı ekspert Rəşad Əliyevin sözlərinə görə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafından danışarkən söhbət təkcə istehsaldan yox, həm də xidmət sektorunun hərəkətə gətirilməsindən gedir. İnkişaf etmiş ölkələrdə bir qayda olaraq xidmət sektorunun iqtisadiyyatdakı xüsusi çəkisi istehsal sektorundan daha artıq olur. Bu isə o deməkdir ki, xidmət sektoru daha çox iş yerlərinin açılmasını və vergi daxilolmalarını təmin edir: «Hazırda ölkəmizdə turizm sektorunun inkişafı prioritet sahələrdən biri hesab edilir. Bu sahədə ən müsbət tendensiyanı biz mehmanxana biznesinin inkişafında görürük. Əldə olunan nailiyyətlər dayanıqlı inkişaf üçün yetərli olmasa da, görülən tədbirlər nəticəsində tezliklə ictimai iaşə sektorunun inkişafını da müşahidə edəcəyik».

Ekspertin rəyinə görə, turizm regionların inkişafında da müsbət rol oynayır: «Nəzərə almaq lazımdır ki, bu inkişaf təkcə xaricdən gələn turistlərin hesabına yox, eyni zamanda daxili turizmin inkişafı hesabına gerçəkləşir. Bütün bunlar son nəticədə yeni iş yerlərinin açılması və vergi daxilolmalarının artımına xidmət edir».

Ticarət sektorunun inkişafı da turizmin inkişaf konsepsiyasında mühüm yer tutur. Paytaxt Bakıda ticarət festivallarının («shopping festival») təşkilində də məqsəd ölkənin turizm və iqtisadi potensialının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ölkənin ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır. Bu festivallar həm də fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) qaytarılması («Tax free») sisteminin ölkədə tətbiqi ilə inzibatçılığın təkmilləşdirilməsini, rezident və qeyri-rezident vergi ödəyicilərinə xidmət sisteminin inkişaf etdirilməsini nəzərdə tutur.

Ekspert diqqəti turizmin inkişaf etdirdiyi sahələrin son nəticədə digər sahələrin multiplikativ effektlə inkişafına yönələrək demişdir: «Turizm sektorunun inkişafı, sözsüz ki, inkişaf edən sektorlar üzrə vergi daxilolmalarının artımına səbəb olacaq. Bəzi sektorlar üzrə bunun həcmini qiymətləndirmək bir qədər çətin olur. Məsələn, ictimai iaşədən turistlərlə birlikdə yerli əhali də istifadə edir. Buna görə də o sektorda turizmin təsirinin payını müəyyən etmək çətindir. Ancaq mehmanxana sektorunda bunun həcmi daha aydın hiss olunmaqdadır».



> Əldə edilən nailiyyətlər dayanıqlı inkişaf üçün yetərli olmasa da, görülən tədbirlər nəticəsində tezliklə bu sahədə müsbət dinamikanın müşahidə olunacağı şübhə doğurmur

**F.İKRAMQIZI**

## 2017-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli
## VERGİLƏR

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergininbəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**2017-ci ilin 2-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

*(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir. **(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)**

**Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Dövlər rüsumu haqqında hesabat**

cari ilin **iyul ayının 20-dək** vergi orqanına **təqdim edilməlidir** (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergicinin ödəyiciləri tərəfindən**

2017-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr **iyul ayının 17-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Çində futbolçu transferinə 100%-lik vergi tətbiq edilir

Çin hökuməti xaricdən gətirilən oyunçular üçün yerli futbol klublarından tutulan vergiləri ikiqat artıraraq 100 faizə çatdıracaq. Bu qərar klublarda yerli istedadları inkişaf etdirməyə stimul yaratmaq məqsədilə qəbul edilib. Hazırda əcnəbi futbolçular Çin çempionatında oynamaq üçün böyük məbləğlər tələb edirlər.

Çin Futbol Assosiasiyasından bildirilmişdir ki, bu vergi bütün xarici futbolçuların transferinə aid edilməyəcək, yalnız trasfer qiyməti 6,3 milyon dollardan artıq olan idmançılar üçün ödəniləcək. Əcnəbi futbolçuların alınmasına böyük pul xərcləyən klublar eyni məbləği Gənclərin İnkişafı Birliyinin fonduna köçürməlidirlər. İyulun 14-də transfer pəncərəsinin bağlanmasına qədər bu vergi qüvvədə olacaq.

100 faizlik vergi qiyməti 3 milyon dollardan artıq olan yerli futbolçulara da tətbiq olunacaq.

# Britaniyalıların cəmi 4%-i vergilərin azaldılmasına tərəfdardır



Ölkədə keçirilmiş son sosioloji sorğunun nəticələrinə əsasən, Böyük Britaniyanın hər yüz sakinindən cəmi dördü vergilərin və müxtəlif dövlət yığımlarının azaldılmasını istəyir. Respondetlərin 48 faizi hesab edir ki, hökumət səhiyyənin, təhsilin və sosial təminatın maliyyələşdirilməsini yaxşılaşdırmaq üçün vergiləri artırmalıdır. Rəyi soruşulanların 44 faizinin fikrincə, heç nəyi dəyişdirməyə ehtiyac yoxdur. Bütün bunlar onu göstərir ki, Böyük Britaniya əhalisinin böyük əksəriyyəti 2004-cü ildən bəri ölkədə vergilərin artırılması məsələsində hökumətin mövqeyini dəstəkləyir.

Maliyyə böhranından sonra Böyük Britaniyada hakimiyyət başına gəlmiş əksəriyyəti mühafizəkarlardan ibarət olan qüvvələr sosial təminat proqramlarının maliyyələşdirilməsinin azaldılması və büdcədən maaş alan işçilərin əməkhaqqının artımından imtina etmək siyasətinə üstünlük vermişlər. İndi Böyük Britaniyada məsələyə bu cür yanaşmanın gələcəyi şübhə altındadır, seçkilərin nəticələrinə əsasən, əhali bu cür ixtisarlardan imtina edən leyboristləri dəstəkləyir. Böyük Britaniyaya aid daha bir xəbərdə isə bildirilir ki, ölkədəki ailələrin ödədikləri vərəsəlik vergisinin ümumi məbləği ilk dəfə olaraq 5 milyard funt sterlinqdən artıq olmuşdur. Bu rəqəm yeni qaydaların tətbiqinə qədər - apreldə yekunlaşmış dövrə aiddir. Böyük Britaniyanın Vergilər və Yığımlar İdarəsinin (HMRC) məlumatına əsasən, bu ilin may ayında başa çatmış maliyyə ilinin nəticələrinə görə, dövlət xəzinəsinə vərəsəlik vergisi üzrə 5,1 milyard funt sterlinq vəsait daxil olmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə aid göstəricidən 9 faiz çoxdur (keçən maliyyə ilində yığılmış vərəsəlik vergisinin ümumi məbləği 4,7 milyard funt-sterlinq idi). Ekspertlər diqqəti buna yönəldirlər ki, son on ildə daşınmaz əmlakın qiyməti əhəmiyyətli şəkildə artsa da, vərəsəlik vergisinin tutulması üçün müəyyənləşdirilmiş hədd dəyişməz qalmışdır ki, bunun nəticəsində miras kimi ötürülən əmlakın ödəniş həddini keçməsi halları çoxalmışdır.

Hökumətin rəsmi məlumatına əsasən, vərəsəlik vergisinin ödənilməsi üçün zəruri olan daşınmaz əmlakın sayı 2010-cu ildən bəri dörd dəfədən çox artmışdır - 10 mindən təxminən 40 minə çatmışdır.

Əlavə edək ki, bu ilin aprel ayından qiyməti 325 min funt sterlinqə qədər olan daşınmaz əmlak vərəsəlik vergisindən azaddır, daha bahalı evlərə isə 40 faizlik vərəsəlik vergisi qoyulur.

# ABŞ-da səyyar işçilər üçün gəlir vergisi sadələşdirilib

Parlamentin Nümayəndələr Palatasının qəbul etdiyi qanun layihəsinə əsasən, digər ştatların vergi rezidentləri olmaqla qısamüddətli iqtisadi fəaliyyətlə məşğul olan vətəndaşları bundan sonra çalışdıqları ştatların hökumətləri vergiyə cəlb edə bilməyəcəklər.

Əvvəllər bəzən elə vəziyyət yaranırdı ki, hər hansı şəxs bircə gün iqtisadi fəaliyyət göstərdikdə vergi orqanı ondan vergi tuturdu. Yeni qəbul edilmiş qanuna əsasən, müəyyən bir şatatın ərazisində gəlir vergisinin tutulması üçün il ərzində ən azı 30 gün fəaliyyət göstərmək lazım gəlir.

Bundan əlavə, sahibkarların və ya şirkətlərin formal şəkildə vergi orqanlarının tələbi əsasında maliyyə məlumatını təqdim etmək öhdəliyi var idi. Vergi komitəsinin nümayəndələrinin bildirdikləri kimi, əvvəllər müxtəlif ştatlarda fəaliyyət göstərən şirkətlərin hər vergi dövrünün sonunda doldurmalı olduqları vergi bəyannamələrinin və vergi kreditləri üçün blankların sayı 30-a çatırdı.

# Avstraliyalıların vergi hiylələri

Avstraliyada ilk baxışda xırda görünən müxtəlif vergi güzəştləri son nəticədə böyük məbləğ təşkil edə bilir. Əgər bu ölkədə sizin böyük biznesiniz varsa, onda hər bir alış, faktiki olaraq, gəlir təşkil edir və bunun üçün gəlir vergisi ödəməlisiniz. Avstraliyalılar daha az vergi ödəmək üçün bəzi fəndlərə əl atmağa çalışırlar.

***Ev heyvanlarının «kölgəsində gizlənmək» işə yarayır***

İt Avstraliyada insanın sadəcə dostu deyildir. İt saxlamaq həm də vergi güzəşti deməkdir. Əgər biznesinizi həyata keçirdiyiniz yeri itlər qoruyursa, onların saxlanılmasına çəkilən xərclər (yem, baytar xidmətləri) vergidən azad edilir.

***Oxumaq, oxumaq, yenə də oxumaq!***

Təhsillə bağlı xərclər vergiyə cəlb edilmir. Hətta sizin təhsiliniz əsas fəaliyyət sahənizlə bağlı olsa belə, təhsilə çəkdiyiniz xərclər üçün vergi ödəmirsiniz.

***Evdə işləmək...***

Əgər öz biznesinizi evinizdə yaratmısınızsa, elektrik, qaz, su və sığorta hesablarının bir hissəsini biznesin aparılmasının ayağına yaza bilərsiniz.

# Aİ-nin yeni vergi direktivi qüvvəyə minib

Avropa İttifaqının vergi ödəməkdən yayınmağa qarşı yönəldilmiş və maliyyə fırıldaqlarının aradan qaldırılmasını nəzərdə tutan dördüncü direktivi iyunun 26-da qüvvəyə minmişdir. Bu sənəd bir sıra tələblərin sətrləşdirilməsi yolu ilə vergi qanunlarının gücləndirilməsini əhatə edir, məsələn, şirkət sahiblərinə və onların əmlakına münasibətdə vergitutma üzrə dəqiq tələbləri müəyyənləşdirir. Toplanmış məlumatlar xüsusi registrdə saxlanılacaq və onlardan ayrı-ayrı dövlətlərin hökumətləri istifadə edə biləcək.

Bundan əlavə, direktiv fiskal xidmətlərin müxtəlif ölkələrdə fəaliyyət göstərən bölmələri arasında əməkdaşlığı və məlumat mübadiləsini, təsdiq olunmamış iri bank köçürmələrinin üzə çıxarılmasını və izlənilməsini də nəzərdə tutur. Sənəddə maliyyə müəssisələri və hüquq firmaları üçün risklərin qiymətləndirilməsi barədə öhdəliklər də qeyd edilmişdir.

## Xəbər lenti

**Filippin** Maliyyə Nazirliyindən bildirilmişdir ki, əlavə dəyər vergisinin aşağı dərəcəsinin tətbiqi ölkədə vergi bazasının genişləndirilməsindən və vergi sistemində daha geniş dəyişikliklərin həyata keçirilməsindən sonra mümkün ola bilər.

**Avropa Məhkəməsi**nin qərarına əsasən, din ilə dövlət ayrı olsa da, kilsə hakimiyyətdən aldığı pul vəsaitlərinə görə vergi ödəməlidir. Bu məhkəmə prosesinin aparılmasına səbəb İspaniyanın katolik məktəbi ilə bağlı qaldırılmış iddia olmuşdur.

**Yeni Zelandiya** ilə bağlı OECD-nin illik hesabatında korporativ mənfəət vergisinin azaldılması və əhali üçün gəlir vergisi tutulan həddin dəqiqləşdirilməsi tövsiyə edilmişdir. Hesabatda bildirilir ki, Yeni Zelandiyada korporasiyalar üçün verginin dərəcəsi 28 faizdir ki, bu da OECD ölkələri üzrə orta göstəricidən (25 faiz) artıqdır.

**Avropa Komissiyası** öz müştərilərinə vergi planlaşdırmasında yardım edən şirkətlərə vergi şəffaflığının yeni qaydalarını təklif etmişdir. Yeni təklif olunan qaydalara əsasən, vergi məsləhətçiləri, mühasiblər, bank işçiləri və hüquqşünaslar müvafiq sazişlər qüvvəyə minənə qədər onların barəsində məlumat verməlidirlər.

**Filippin** Maliyyə Nazirliyindən bildirilmişdir ki, əlavə dəyər vergisi üçün daha aşağı dərəcənin tətbiqi vergi bazasının genişləndirilməsindən və vergi sistemində daha əhatəli dəyişikliklər aparılmasından sonra mümkün ola bilər.

**ABŞ**-da beynəlxalq korporativ mənfəət vergisi nisbətən aşağı hədd dərəcələri müəyyənləşdirilməklə icarə vergisi ilə əvəz olunmalıdır, - BVF-nin məruzəsində bildirilmişdir.

**Yunanıstan** parlamentinin qəbul etdiyi yeni qanunda Avropa İttifaqına üzv dövlətlər arasında ilkin vergi qərarlarının mübadiləsi ilə bağlı inzibati əməkdaşlıq nəzərə alınmışdır.

# Vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsi yüksəlib

Meksika hökuməti bəyan etmişdir ki, ölkədə vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsi maksimum həddə - 95 faizə çatdırılmışdır. Meksikanın Vergi Administrasiyası Xidmətinin məlumatına görə, bu nəticənin əldə edilməsi vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi sayəsində mümkün olmuşdur. Artıq ölkənin vergi sistemində yeni texnologiyalar geniş şəkildə tətbiq edilir, əməletmə prosesləri isə sadələşdirilmişdir. Meksikalıların 22,2 faizi hazırda hökumətin göstərdiyi internet xidmətlərindən istifadə edir.

Qeyd olunmuşdur ki, 2017-ci ilin birinci rübündə vergi borcları olan şəxslərə qarşı tətbiq edilən məqsədyönlü məcburiyyət tədbirləri nəticəsində 24,5 milyard peso (1,32 milyard ABŞ dolları) məbləğində vəsait yığılmışdır. Vergi administrasiyasının məlumatında o da bildirilir ki, vergi ödəyicilərinə öz öhdəliklərinə könüllü əməl etmələri üçün hər cür kömək göstərilir. Vergi ödəyicilərinin öz vergi öhdəliklərini yerinə yetirə bilmələri üçün sadə və pulsuz alətlər tətbiq edilir, vergi borclarını vaxtında ödəyə bilməyən vətəndaşlara bu işi müəyyən müddətlərlə yerinə yetirməyə imkan yaradılır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Bəhreynin paytaxtı; 2.Braziliya və Venesuela arasında yerləşən dağ; 3.Qədim yunan mifologiyasında personaj. Siciliyalı qəhrəman; 4.Şimali Avropanın qərbində yerləşən ada dövlətinin rəsmi dili, german dillərinin Skandinaviya qrupuna aiddir; 5.İki komanda arasında oval-şəkilli topun əl və ayaqla nəzarət edilməsi əsasında oynanılan komanda oyunu; 6.İslam aləmində müqəddəs bayramlardan biri; 9.Türk və Altay mifologiyasında tanrı adı; 13.Kimyəvi element; 15.Monitor, ekran; 16.İkitəkərli nəqliyyat növü; 17.Fransız rəssamı, qrafiki və heykəltəraşı. İmpressionizm cərəyanının parlaq nümayəndələrindən biri; 18.Məhəmməd peyğəmbərin nəvəsi; 20.İsmayıllı rayonunda qəsəbə; 21.Türkiyənin «Beşiktaş» futbol komandasının hücumçusunun soyadı. **Soldan sağa:** 1.Mübadilə fəaliyyətini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyət; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Yevlax rayonunda kənd; 8.Rusiyada çay; 10.Türk dilində ilin 5-ci ayının adı; Türkiyə təqvimində ilin 5-ci ayının adı; 11.Neptunun üçüncü ən böyük peyki; 12.Müasir döyüş sənəti, idman növü; 14.Respublikamızda rayon; 19.Aypara şəklində olan içi ətli italyan piroqu; 21.Cənubi slavyan xalqlarında simli, kamanlı çalğı aləti; 22.Pirney yarımadasında ən böyük çay; 23.Bor tərkibli alümosilikat qrupundan mineral (qırmızı, bənövşəyi, çəhrayı, göy, yaşıl və s. rənglərdə olur) zinət əşyalarının istehsalında geniş istifadə olunan qiymətli daş; 24.Məşhur hind kinorejissoru, ssenarist, prodüser və aktyorun adı; 25.Özbəkistan ərazisində Səmərqəndin şimalında bizim eradan əvvəl 500-cü il ilə 1220-ci illər arasında salınmış qədim şəhər.



*«Avara» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dialoq; 2.Difenil; 3.Klina; 4.İranzu; 5.Rolla; 6.Buldoq; 9.İrar; 13.Aişə; 15.«Oyuncaq»; 16.Salyan; 17.Skvayr; 18.Pioner; 20.Tivat; 21.Mimas. **Soldan sağa:** 1.Didaktika; 5.Rüb; 7.Affrikat; 8.Əlil; 10.Omnya; 11.«Zerkalo»; 12.«Almaz»; 14.Arqon; 19.Artişok; 21.Mauri; 22.Yava; 23.Lahmacun; 24.Not; 25.Portsiqar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Azərbaycan güləşçilərindən növbəti uğurlu nəticə




İran İslam Respublikasının Qum və Çabahar şəhərlərində yeniyetmələr arasında yunan-Roma və sərbəst güləş üzrə İmam Yadigar Kuboku uğrunda 3-cü beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, komandalararası yarış xarakteri daşıyan turnirdə hər iki yığmamız iştirak edib. Yunan-Roma güləşçilərimiz gümüş, sərbəst güləşçilərimiz isə bürünc medal qazanıblar.

Qum şəhərində keçirilən yunan-Roma güləşi üzrə turnirdə 18 komanda 4 qrupda mübarizə aparıb. İraq (10-0), Tacikistan (8-2) və Serbiya (10-0) ilə «D» qrupunda yarışan güləşçilərimiz bütün görüşlərini qələbə ilə başa vurublar. Qrup birincisi kimi yarımfinala yüksələn komandamız Türkiyə yığması ilə gərgin keçən görüşü 6:4 hesablı qələbə ilə yekunlaşdırıb və finala yüksəlib. Həlledici görüşdə İran yığmasının əsas komandası ilə qarşılaşan güləşçilərimiz 3:7 hesabı ilə uduzub və turnirin gümüş medalına yiyələniblər. Böyük məşqçi Bəhram Mürvətov və məşqçi Fuad Alıyevin rəhbərliyi altında turnirdə Qurban Qurbanov (42 kq), Həsrət Cəfərov (46 kq), Zaur Əliyev (50 kq), Əsgər Əlizadə (54 kq), Həsən Məmmədli (58 kq), Vəfadar Cəfərov (63 kq), Asim İmanzadə (69 kq), Fikrət Vəliyev (76 kq), Bəhruz Həziyev (85 kq) və Sərxan Məmmədov (100 kq) iştirak ediblər.

Çabahar şəhərində keçirilən sərbəst güləş yarışlarında isə 16 komanda iştirak edib. İran (9:1), Macarıstan (9:1) və İraq (10:0) komandaları ilə «B» qrupunda mübarizə aparan sərbəst güləş yığmamız qrup birincisi kimi yarımfinala yüksəlib. Yarımfinalda Rusiya yığmasına 7:3 uduzan güləşçilərimiz bürünc medal uğrunda görüşə çıxıblar. Üçüncü yer uğrunda görüşdə digər İran komandası ilə qarşılaşan yığmamız 6:4 hesabı ilə qələbə qazanıb və turniri bürünc medalla başa vurub. Məşqçilər Vahid Məmmədov və Yaşar Əliyevin rəhbərliyi altında turnirdə Kənan Heybətov (42 kq), Əşrəf Kərimzadə (46 kq), Mahir Məmmədzadə (50 kq), Ramiz Həsənov (54 kq), Əsgər Məmmədəliyev (58 kq), Hacımurad Hacıyev (63 kq), Davud İbrahimov (69 kq), Abdulmuslim Məmmədov (76 kq), Sənan Əlizadə (85 kq) və Hamlet Nəsibli (100 kq) iştirak ediblər.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil edib

# «Alman maşını»nı bu dəfə də dayandırmaq mümkün olmadı

Rusiyanın ev sahibliyi etdiyi onuncu FIFA Konfederasiyalar Kuboku turniri başa çatıb. Final qarşılaşmasında Çili yığmasına minimal hesabla qalib gələn Almaniya millisi çempionluğu bayram edib. Dördqat dünya çempionları öz titullarına daha birini əlavə ediblər. İyulun 2-də Sankt-Peterburq şəhər stadionunda keçirilən matçda azarkeşlər maraqlı və gərgin idman mübarizəsinin şahidi olublar. Oyunun taleyini həll edən yeganə qolu matçın 20-ci dəqiqəsində müdafiəçilərin kobud səhvindən istifadə edən Almaniya yığmasının heyətində Lars Ştindl rəqib komandanın qapısından keçirib.

Bir gün əvvəl isə 3-cü yer uğrunda keçirilən görüşdə Portuqaliya yığması Meksika komandasına qalib gəlib. Matçın 54-cü dəqiqəsində portuqaliyalı müdafiəçi Luiş Netu «avtoqol»a imza atıb. Əsas vaxtın sonuncu dəqiqəsində Pepenin vurduğu qolla hesab 1-1 olub və əlavə vaxt təyin edilib. Uzadılmış dəqiqələrdə hakimin təyin etdiyi penalti zərbəsini uğurla icra edən portuqaliyalı Adrien Silva komandasının qələbə topunu vurub. Bununla da son Avropa çempionu Portuqaliya millisi turnirin bürünc medalını qazanıb.



Mükafatlandırma mərasimində FIFA prezidenti Cianni İnfantino turnirin ən yaxşı qapıçısına - Çili millisinin qolkiperi Klaudio Bravoya «Qızıl əlcək» mükafatını təqdim edib. Almaniya millisinin üzvləri - Timo Verner «Qızıl buts», kapitan Yulian Draksler isə «Qızıl top» mükafatlarına layiq görülüblər.

# Hakan Çalhanoğlu rəsmən «Milan»da!




«Milan» klubu Türkiyə milli komandasının futbolçusu Hakan Çalhanoğlunu transfer edib. Klubun rəsmi saytı xəbər verir ki, İtaliyaya yollanaraq «Milan»da tibbi müayinədən keçən 23 yaşlı yarımmüdafiəçi dördillik müqaviləyə imza atıb. İtaliya təmsilçisi futbolçunu heyətinə qatmaq üçün Hakan Çalhanoğlunun çıxış etdiyi «Bayer Leverkusen» klubuna 20 milyon avro ödəməyə razılaşıb. Ancaq Türkiyə millisinin üzvü çıxışına görə Almaniya klubunda daha dörd milyon avro bonus qazana bilər. Oyunçunun yeni komandasında illik məvacibi 2,5 milyon avro olacaq. Qeyd edək ki, peşəkar karyerasına 2011-ci ildə «Karlsrue»də başlayan Hakan 2013-cü ildə «Hamburq»a transfer olunub və cəmi bir mövsüm bu komandada oynadıqdan sonra «Bayer»ə keçib. Ötən mövsüm Bundesliqada 15 oyunda meydana çıxan yarımmüdafiəçi 6 qol vurub və 5 məhsuldar ötürmə verib.

# Avropa çempionatına sayılı günlər qaldı

İyulun 21-dən avqustun 4-dək Bakıda atıcılıq üzrə Avropa çempionatı keçiriləcək. Yarışlarda 43 ölkənin yığması 25, 50 və 300 metr məsafələrdən hədəfi nişan almada, həmçinin stendin bütün növləri üzrə yarışlarda gücünü sınayacaq. Ümumilikdə 932 snayperin iştirak edəcəyi çempionatda yığmamız 25, 50 və 300 metr məsafələrdən hədəfi nişan almada güllə, həmçinin stendin bütün növləri üzrə 20 snayperlə qatılacaq.

Güllə atıcılığı üzrə yeniyetmələrin yarışında Nəzrin Abbaslı, böyüklərin mübarizəsində isə Ruslan Lunyov güclərini sınayacaq. Stend atıcıları arasında isə 18 snayperimiz yarışacaq. Aşağı yaş qrupu üzrə çempionatda hədəf önünə Mirmömin Ağazadə, Cavid Həsənov, Aydan Camalova, Vaqif Məhəmmədov və Sabir Mehdizadə çıxacaqlar. Böyüklər arasında isə Niyaz Ağazadə, Paşa Əhədpur, Əlimirzə Quliyev, Şəfəq Əmrahova, Fuad Qurbanov, Əli Hüseynli, Elvin İsmayılov, Emin Cəfərov, Nurlana Cəfərova, Püstəxanım Məlikova, Tamerlan Məmmədov, Regina Meftahətdinova və Ramil Rüstəmzadə medallar uğrunda mübarizə aparacaqlar.

## mozaika

robototexnika

# Robot jurnalistlərin suallarını cavablandırır



BMT-nin Cenevrədə keçirilən sammiti çərçivəsində «Hanson Robotics» şirkətinin mütəxəssisləri-nin hazırladığı «Sofiya» adlı insanabənzər robot süni intellektin bütün dünya üçün faydalı olacağını və bəşəriyyətə müxtəlif sahələrdə kömək edəcəyini bildirib.

Jurnalistlərin suallarını cavablandıran «Sofiya» deyib: «Hazırda alimlər süni intellekti insanların qayğısına qalan, emosional və ağıllı etmək üçün çalışırlar. Biz heç vaxt insanları əvəz etməyəcəyik, əksinə, sizin dostunuz və köməkçiniz olacağıq».

Robot, həmçinin, etiraf edib ki, insanlar yeni texnologiyaların inkişafının nəticələrini unutmamalıdırlar.

«Biznesin avtomatlaşdırıldığı bir dövrdə iqtisadiyyat və iş yerlərinin gələcəyi barədə narahatlığa əsas var. Belə ki, getdikcə çoxsaylı işçilərə tələbat azalır», - deyə «Sofiya»nın yaradıcısı Devid Hanson etiraf edib. Lakin o, yeni texnologiyaların inkişafının zərərdən çox fayda verəcəyinə də əmindir.

Süni intellektin təhsil və səhiyyə sistemində, xüsusilə də müəllim və həkimlərin azlığından bir sıra problemlər yaşayan rayonlarda inqilab edəcəyi gözlənilir. D.Hanson növbəti mərhələdə robota insanları sevməyi və onların qayğısına qalmağı öyrətməyi planlaşdırır.

sağlam həyat tərzi

# Beyin üçün faydalı

ABŞ ekspertləri beyin üçün faydalı olan yeyinti məhsullarının siyahısını tərtib ediblər. Onlar zeytun yağından bol istifadə etməyi məsləhət görürlər. Zeytun yağı Alsheymer xəstəliyinin markerləri olan beta-amiloid yığınlarının və neyrofibrilyar kələflərin həcmini azaldır. Bu xəstəlik həm də insulinlə bağlıdır. Şəkərin səviyyəsinin yüksəlməsi beyinə ziyan vurur. Buna görə də mütəxəssislər rafinə edilməmiş karbohidratlara (qarabaşaq, kəpəkli taxıl məhsulları, çiy tərəvəz) üstünlük verməyi tövsiyə edirlər.



Qarabaşaq beyində neyroötürücülərin siqnal aktivliyi üçün zəruri olan B vitaminlər qrupu, manqan, fosfor və sinklə zəngindir. Onlar həm də həyəcan hissini və baş ağrılarını aradan qaldırır. Yumurtaya da diqqət yetirmək lazımdır. Yumurta zülal, omeqa-3 yağ turşuları, antioksidantlar və xolinlə zəngindir. Beyin asetilxolin neyroötürücüsünün istehsalında xolindən istifadə edir. Yumurtanın tərkibində olan fosfolidlər də siqnal ötürülməsi üçün əhəmiyyətlidir.

Badam yağı daha bir faydalı zülal mənbəyidir. Bundan əlavə, badam yağında neyron fəallığını sürətləndirən və koqnitiv göstəricilərin zəifləməsinin qarşısını alan riboflavin və L-karnitin var. Qaragilə beyini oksidləşdirici stressdən müdafiə edən antioksidantlarla zəngindir. Rozmarin də unikal məhsuldur. Onun tərkibində asetilxolin neyroötürücüsünün səviyyəsini artıran və Alsheymer xəstəliyinə qarşı təsirli olan 1,8-sineol var. Siçanlar üzərində eksperimentlər göstərib ki, bu birləşmə yaddaşı yaxşılaşdırır, beynin antioksidant fəallığını artırır.

Tünd şokolad özünün antioksidant xassələri ilə məşhurdur. O, iltihabı götürür, qan təzyiqini azaldır, baş beyində qan dövranını yaxşılaşdırır, ovqatı yüksəldir. Sarıkök də iltihabı aradan qaldırır. Çuğundur isə nitratlar hesabına damarları genişləndirir. Nitrat bədəndə damarların mənfəzini boşaldan və genişləndirən azot oksidinə çevrilir, nəticədə qan dövranı yaxşılaşır, beynin oksigenlə və bəsləyici maddələrlə təchizatı yüksəlir. Üstəlik, çuğundur qırmızı qan cisimlərinin əmələ gəlməsi prosesini tənzimləyir.

mədəniyyət

# Xurşudbanu Natəvan Fransada...

Azərbaycanın İsmayıllı və Fransanın Evian-le-Bən şəhərləri arasında imzalanmış dostluq və əməkdaşlıq xartiyası çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə Evian şəhərində, Leman gölü sahilində «Azərbaycan parkı»nda «Dostluq bulağı»nın rəsmi açılış mərasimi olub. Mərasimdən sonra görkəmli Azərbaycan şairəsi Xurşudbanu Natəvanın heykəli tədqim edilib.

Mərasimdə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqovun rəhbərlik etdiyi nümayəndə heyəti, Evian-le-Bən şəhərinin meri Mark Fransina, Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov, ölkəmizin Fransadakı səfirliyinin iqtisadi və regionlarla əməkdaşlıq məsələləri üzrə müşaviri, müvəqqəti işlər vəkili Elmar Məmmədov, Heydər Əliyev Fondunun nümayəndəsi Ələkbər Quliyev, yerli ictimaiyyətin və mətbuatın nümayəndələri, eləcə də Fransada və İsveçrədə yaşayan azərbaycanlılar iştirak ediblər.

Mark Fransina bu günün İsmayıllı şəhərinə həsr olunduğunu bildirib. İsmayıllının şərəfinə salınmış «Azərbaycan parkı»nın, eləcə də Azərbaycanın görkəmli şairəsi Xurşudbanu Natəvanın parkın mərkəzində ucaldılmış heykəlinin açılışından şərəf duyduqlarını vurğulayıb. Bildirib ki, bu heykəlin ucaldılması iki şəhər arasında mədəni əlaqələrin, qarşılıqlı dostluğun möhkəmlənməsinə xidmət edəcək. Qeyd olunub ki, şəhər meriyası ikitərəfli dostluğun rəmzi olan bu parkın həmişə belə



gözəl olmasını daim diqqətdə saxlayacaq.

Mirdamət Sadıqov parkın açılması münasibətilə şəhər sakinlərini təbrik edərək bildirib ki, bu hadisə çox qürurvericidir. O, İsmayıllıda «Evyan-le-Bən» parkının açıldığını və rayon muzeyində dost şəhərlə bağlı guşənin fəaliyyət göstərdiyini qeyd edib. Belə layihələrə göstərdikləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib.

Ələkbər Quliyev isə təmsil etdiyi qurumun iki ölkə arasındakı əlaqələrə böyük önəm verdiyini, çoxsaylı layihələr həyata keçirdiyini, tədbirlər təşkil etdiyini diqqətə çatdırıb. Bildirib ki, Fondun dəstəyi ilə Parisdə mütəmadi olaraq «Azərbaycan şəhərciyi» təşkil olunur, Kann şəhərində ölkəmizin tarixi və mədəniyyətinə həsr olunan, artıq ənənəyə çevrilmiş sərgi keçirilir, tariximiz, mədəniyyətimiz, eləcə də milli mətbəximizlə bağlı kitablar fransız dilinə tərcümə edilir. İki xalqın qarşılıqlı şəkildə bir-birinin mədəniyyətini daha yaxından tanıması üçün müntəzəm olaraq Fransanın müxtəlif şəhərlərində mədəniyyət tədbirləri keçirilir.

texnologiya

# Ciyərlərin diaqnostikası üçün...

Yaponiyanın elektronika istehsalı sahəsində tanınmış «Fujitsu» şirkəti ciyərlərin xəstələnməsi, xüsusən pnevmaniya zamanı diaqnozun qoyulması üçün xüsusi aparat yaradıb. Şirkətdən bildiriblər ki, yeni texnologiya kompüter tomoqrafiyası vasitəsilə çəkilən şəkilləri daha qısa vaxt ərzində araşdırmağa imkan yaradır.

Əsasında süni intellektin dayandığı texnologiya kompüter tomoqrafiyasının çəkilişlərindən istifadə edərək pasiyentin ciyərlərinin üçölçülü təsvirini yaradır . Sonra məlumatlar bazasından oxşar halları tapıb çıxararaq həkimlərə yekun diaqnozu qoymağa yardım edir. Alimlərin bildirdiyinə görə, universitetlərin birində aparılan eksperiment zamanı diaqnozun müəyyən olunması üçün sərf edilən vaxt bir saatdan on dəqiqəyə enib.

**Müdriklər deyib ki...**



*«İnsanı öz əməlləri əks etdirir».*

*Fridrix Şiller (1759-1805)*